www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19-20 dekabr 2015-ci il Şənbə № 283 (6311) Qiymәti 40 qəpik

**Xəbər**

## Sərxoş sürücü qəza törətdi, ata və azyaşlı oğlu öldü

yazısı səh.14-də

**Gündəm**

### Milli Məclis rəhbərliyindən əfv anonsu



Parlamentdə dəniz sahilinin hasarlanması məsələsi qalmaqala səbəb oldu; deputatlar ABŞ Konqresinə təklif edilən layihəyə də etiraz bildirdilər

yazısı səh.5-də

### Azərbaycan daha bir şəhid verdi

yazısı səh.2-də

### Nardaranda əməliyyatlar davam edir: daha 8 nəfər saxlanıldı

yazısı səh.12-də

### Adı "Akula Akif"in şəriki kimi çəkilən şəxs danışdı

yazısı səh.3-də

### Sanksiyalar hədəsi siyasi məhbusların taleyinə necə təsir edəcək...

yazısı səh.6-da

### Azərbaycanı ermənilərə satan İran generalı...

yazısı səh.7-də

### Mərkəzi Bank 8 gündə bazara 750 milyon dollar çıxarıb

yazısı səh.8-də

### ABŞ-dan sanksiya hədəsinin pərdəarxası...

yazısı səh.9-da

### Xəzər nərəsini nərə çəkib ovlayır, kürüsünü kürəklə kürüyürlər

yazısı səh.10-da

### "Heydər" məscidində ilk cümə namazı qılındı

yazısı səh.11-də

### "Bəzi işbazlar süni yumurta qıtlığı yaratmaqla ajiotajla məşğuldur"

yazısı səh.14-də

### Tələbə qız 9-cu mərtəbədən yıxıldı, sağ qaldı...

yazısı səh.14-də

### Akif Çovdarovun qızı işdən çıxarıldı

yazısı səh.2-də

## MTN və Rabitə Nazirliyindəki istintaqla bağlı şok xəbərlər

# İKİ SABİQ NAZİRLƏ BAĞLI MÜDHİŞ HƏBS PLANI - NİYƏ SƏHLƏNKARLIQ MADDƏSİ?

Eldar Mahmudovdan sonra sabiq rabitə naziri Əli Abbasov barəsində də faktiki ev dustağı edilməsi barədə qərar verilib; indi istintaqın işi o qədər qəlizləşib ki, RTYN-də həbs edilənlər həm də MTN işi üzrə istintaqa da ifadə verməli olurlar; **YAP funksioneri:** "Hər iki keçmiş nazir həbs olunacaq..."



yazısı səh.8-də

## Türkiyə və İsrail tarixi anlaşma ərəfəsində - Moskva, Tehran və İrəvan təlaşda

Səfirlər geri qayıdır; münasibətlərin tam həcmdə bərpası üçün "yol xəritəsi" də hazırlanıb; Ankara-Təl-Əviv-Bakı geosiyasi güc vektoru yeni məzmun qazana bilər, əgər...

yazısı səh.7-də



### Rəsul Quliyev Azərbaycana qayıtmaq istəyir, amma...

yazısı səh.12-də



Elşad Abdullayev

### General Akif Çovdarov Elşad Abdullayevə işgəncə veribmiş - sensasion açıqlamalar

yazısı səh.3-də



*Elxan Şahinoğlu:*

### "Putinin fikirləri bir çox dövlətləri Rusiyaya qəzəbləndirə bilər"

yazısı səh.4-də



## Prezident İlham Əliyev Serj Sarkisyanla görüşə getdi

**Azərbaycan prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə Ermənistan prezidenti ilə görüşdə iştirak etmək üçün dekabrın 18-də İsveçrənin paytaxtı Bern şəhərinə gedib. Musavat.com xəbər verir ki, məlumatı prezidentin mətbuat xidməti yayıb.**

## "Günəşli" yatağında qəza nəticəsində Xəzərdə neft dağılmaları müşahidə olunmayıb"

**"Xəzər dənizinin "Günəşli" yatağının 10-cu dərin dəniz özülündə baş vermiş qəza nəticəsində atmosfer müəyyən mənada çirklənməyə məruz qalır. Ancaq qəza nəticəsində Xəzər dənizində neft dağılmaları müşahidə olunmayıb".**

APA-nın xəbərinə görə, bunu hazırda "Günəşli" yatağındakı 10-cu özüldə olan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin sektor müdiri Mirsalam Qəmbərov nazirlikdə keçirilən mətbuat konfransında canlı bağlantı zamanı deyib.

O qeyd edib ki, bu gün SOCAR, BP və digər aidiyyəti qurumların texniki vasitələri neft dağılmaları baş verəcəyi təqdirdə qabaqlayıcı tədbirlər görəcək: "10-cu stasionar özüldə baş verən qəza ekoloji fəlakətin baş verməsinə dəlalət etmir".

## "Azərpoçt"un 3 filial rəhbəri işdən qovuldu

**"Azərpoçt" MMC-nin 3 filialının rəhbəri işdən qovulub. Quba, Neftçala və Qazax rayon poçt filiallarının rəisləri fəaliyyətində yol verdiyi nöqsanlara görə tutduğu vəzifələrindən azad olunublar.**

Bildirilir ki, bu addım Rabitə v Yüksək Texnologiyalar Nazirliyində aparılan islahatlar çərçivəsində atılıb: "Fəaliyyətində nöqsanlara yol verən "Azərpoçt" MMC-nin filial rəislərinin siyahısı var. Yaxın günlərdə digər siyahıda adları olan filial rəhbərləri də işindən azad olunacaq". (APA)

## Türkiyədən böyük uğur: İsrail Qəzzada blokadanı qaldırır

**Türkiyə və İsrail Qəzza ilə bağlı razılıq əldə edib. Axar.az xəbər verir ki, Türkiyənin səlahiyyətli şəxslərindən biri İsraillə danışıqlarda Qəzza blokadasının aradan qaldırılması istiqamətində irəliləyişə nail olduqlarını bildirib.**

Adı açıqlanmayan türkiyəli səlahiyyətli İsraillə danışıqlarda Qəzza blokadasına dair irəliləyiş əldə etdiklərini, bu ölkə ilə yekun sazişin imzalanmasının yaxın zamanda reallaşacağını qeyd edib.

## Azərbaycanlı biznesmen poker qumarında 292 min avro uddu

**Praqada keçirilən poker bayramı səs-küylə başa çatıb və onun qalibləri məlum olub. Diqqət mərkəzində, təbii ki, EPT Prague baş hadisəsi və onun final masası olub. Burada MDB-dən iki oyunçu - azərbaycanlı İlkin Əmirov və rusiyalı Qleb Tremzin iştirak edib.**

Pokeroff.ru saytı xəbər verir ki, final gününün yekunlarına görə, üçüncü yer biznesmen İlkin Əmirovun olub (291 min 910 avro və ya 446 min manat). Ranner-up "Ti0373" ünvanını Qleb Tremzin qazanıb. O, alman Hosseyn Ensanla sazişə görə, 724 min 510 avro udub.

Qeyd edək ki, Qleb İlkini oyundan "öz əli ilə" çıxarıb. Əmirov oyundan çıxandan sonra Tremzin və Ensan arasında pul sazişi bağlanıb. Onlar mükafatı yarı bölərək oyun üçün 30 min avro və qalib trofeyini saxlayıblar (oxu.az).


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Azərbaycan daha bir şəhid verdi

## Müdafiə Nazirliyi: "Erməni tərəfi iki-üç qat artıq itki verir"

**Dekabrın 17-də qoşunların təmas xəttində düşmənlə döyüş toqquşmasında Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu əsgər Kərimov Taleh Saleh oğlu həlak olub.**

Musavat.com xəbər verir ki, məlumat Müdafiə Nazirliyinin saytında yerləşdirilib.

"Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə baş sağlığı verir və səbr diləyir! Müdafiə Nazirliyi bildirir ki, qoşunların təmas xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət bütünlüklə Ermənistanın cinayətkar hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - məlumatda deyilir.



Ermənistan silahlı qüvvələri bölmələrinin xüsusi hazırlıq keçmiş təxribat dəstələrinin cəbhənin müxtəlif istiqamətlərində mövqelərimizə basqın etmək cəhdlərinin qarşısı Azərbaycan əsgəri tərəfindən qətiyyət və uğurla alınır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya bildirilib ki, hər dəfə canlı qüvvə sarıdan iki-üç qat döyüş itkisi verən düşmən tərəf, höcət məxluq kimi eyni palçığa dəfələrlə batmaqdan bezmir. İkrah doğurucu isə odur ki, xeyli sayda itkilərini gizlətdiyi halda, uğursuzluğa düçar olduğunu ört-basdır etməkdən ötrü dərhal Ermənistanın Müdafiə Nazirliyi əvvəlcədən eyni ssenari əsasında hazırlanmış yalan xəbərləri yaymaqdan belə çəkinmir.

**"Azərbaycan əsgərinin cəsarəti, igidliyi və silahının gücü hesabina düşmən həmişə olduğu kimi, yenə də layiq olduğu cavabı alacaq, ona qarşı daha ciddi tədbirlər görüləcək, sarsıdıcı zərbələr endiriləcək. Erməni tərəfi torpaqlarımızı tərk etməli olduğunu anlayana qədər itkilərə məruz qalacaq", - deyə məlumatda bildirilir.**

## ABŞ neft ölkələrini dizi üstə qoydu

**ABŞ Nümayəndələr Palatası neft ixracına qoyulmuş qadağanın götürülməsini nəzərdə tutan sənədi bəyənib.**

Virtualaz.org saytı xəbər verir ki, məlumatı "Reuters" yayıb.

İnformasiyaya görə, amerikalı parlamentarlar neft ixracına hələ 40 il əvvəl qoyulmuş qadağanın ləğvini nəzərdə tutan büdcə layihəsini böyük səsçoxluğu ilə qəbul ediblər.

ABŞ Konqresinin aşağı palatası dövlət təsisatlarının 2016-cı ilin sentyabrına qədər maliyyələşdirilməsi təklifini də bəyənib. Xərclərin həvmi 1,1 trilyon dollar təşkil edəcək. Sənədlər baxılması üçün yuxarı palataya - Senata göndərilib.

Qeyd edək ki, ABŞ Konqresinin rəhbərliyi neft ixracına qoyulmuş qadağanın ləğvi barədə bundan əvvəl razılıq əldə etmişdi. Müzakirələr zamanı respublikaçılarla demokratlar arasında kompromis əldə olunması zərurəti yaranmışdı.

**Demokratlar neft ixracına embarqonun ləğvini dəstəkləmişdi. Respublikaçılar isə "yaşıl energetika"ya dövlət yardımı ideyasına "hə" demişdi.**


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Akif Çovdarovun qızı işdən çıxarıldı

**Ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, hazırda həbsdə olan Akif Çovdarovun ailəsinə daha bir zərbə vuruldu. Criminal.az-ın məlumatına görə, generalın qızı Günay Əmircanova işdən çıxarılıb.**

O, Respublika Endokrinologiya Mərkəzində həkim işləyirdi. Onun həyat yoldaşı, polkovnik Ruslan Əmircanov isə bir müddət əvvəl MTN-dən qovulmuşdu.

Xatırladaq ki, A.Çovdarov Cinayət Məcəlləsinin 302.2 (Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma (eyni əməllər informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələrdən istifadə etməklə törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə), 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə, zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilləndirilir. Onun barəsində Səbail rayon Məhkəməsi tərəfindən 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:




## Hilal Əsədov işdən çıxarıldı

**Milli təhlükəsizlik nazirinin müavini postunu tutan Hilal Əsədov dünən - dekabrın 17-də vəzifəsindən azad edilib.**

Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı mötəbər mənbələrdən məlumat daxil olub.

Xatırladaq ki, MTN dekabrın 14-də prezident İlham Əliyevin fərmanı ilə buraxılıb, onun əsasında iki müstəqil qurum - Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb.

Bildirilir ki, Xarici Kəşfiyyat Xidməti rəisinin müavinləri postuna təqdimatı verilən və siyahısı dövlət başçısına göndərilən şəxslərin arasında general Hilal Əsədovun adı yoxdur. O, dünəndən etibarən tutduğu vəzifədən azad olunmuş hesab edilir.

Sabir nazir Eldar Mahmudovun keçmiş müavinləri arasında yalnız nazir müavini Əli Şəfiyev Dövlət Təhülkəsizliyi Xidməti rəisinin müavini vəzifəsində saxlanıb.

"Qafqazinfo"ya daxil olan məlumata gorə, Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri, general Vəli Əsgərov da isdənn azad edilib.

## Suriyalı qaçqınlar Bakıya da gəlib çıxdılar

**Azərbaycan Suriyadan qaçqın düşmüş iki ailəyə sığınacaq verib. Bu barədə virtualaz.org saytına miqrasiya üzrə ekspert Azər Allahverənov məlumat verib.**

A.Allahverənovun sözlərinə görə, Suriya qaçqını olan daha 4 ailə də qaçqın statusu almaq üçün müraciət edib. Onların müraciətinə baxılacaq. Hazırda qaçqınların sənədləri araşdırılır.

Ekspert hesab edir ki, Bakıya gələn suriyalı qaçqınlar Azərbaycanı dini mənsubiyyət yaxınlığına görə seçdiklərini bildiriblər: "Amma ərəb ölkələrindən Azərbaycana adətən müraciətlər daxil olmur. Ərəb ölkələrindən olan qaçqınlar əsasən dil baxımından yaxın ölkələrə gedirlər. Ölkəmizə isə daha çox Əfqanıstan, Çeçenistan, Pakistan, İran və İraqdan qaçqınlar gəlir".

Hazırda Azərbaycanda bu ölkələrdən 1600-dək qaçqın var. Onların əksəriyyəti Əfqanıstan və Çeçenistandan gəlib.

**Xatırladaq ki, beynəlxalq güclərin Suriyada başlatdığı amansız müharibədən sonra bu ölkəni yüz minlərlə insan tərk edib. Onların mütləq əksəriyyəti Avropa ölkələrinə səpələnib.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Azərbaycan Beynəlxalq Universitetinin (ABU) sabiq rektoru, hazırda Fransada mühacirətdə yaşayan Elşad Abdullayev ölkə rəhbərliyi, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev və KİV-lərə yeni müraciət ünvanlayıb. Müraciətin bir nüsxəsini də "Yeni Müsavat"a göndərən E.Abdullayev müraciətində Akif Çovdarovun gizli həbsxanasını barədə ilginc təfərrüatları yazıb. Bundan başqa, sabiq rektor milli təhlükəsizlik naziri Eldar Mahmudovla görüşü barəsində də bu günə qədər açıqlamadığı detallardan bəhs edib.**

# General Akif Çovdarov Elşad Abdullayevə işgəncə veribmiş - sensasion açıqlamalar

## Məhbəsdəki MTN generalının gizli həbsxanası ilə bağlı sensasion təfərrüatlar: "Eldar Mahmudov mənimlə görüşündə dedi ki..."

### "Məni bütün gün Çovdarovun Masazırdakı həbsxanasında ac-susuz saxladılar"

Keçmiş ABU rektorunun iddiasına görə, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, hazırda həbsdə olan general-mayor Akif Çovdarovun onun qardaşı Mahir Abdullayevə 300 min dollar borcu olub. E.Abdullayev yazıb ki, Akif Çovdarovun cinayət ortağı Qulu Cəfərov bunu Mahir Abdullayevə oktyabr 2001-ci il tarixdə verdiyi yazılı izahatında da öz imzası, eləcə də barmaq izi ilə təsdiq edib. E.Abdullayev yazır ki, bu əlyazmanı qardaşı itkin düşəndən sonra onun iş otağındakı qara rəngli əl diplomatından götürüb. Bundan sonra Qulu Cəfərovla görüşməyə çalışıb:

«Sonradan bizə məlum oldu ki, o, Akif Çovdarovun şəxsi həbsxanasında işləyir. Qulu Cəfərov bizimlə görüşməkdən qaçırdı. Ancaq eşidəndəki Mahir onunla bir yerdə çox vaxt keçirib, onu axtarmağa başladım. Nəhayət, 2009-cu ildə Qulu Cəfərovu IX mikrorayonda yerləşən və yaxın qohumu Akif Çovdarovla bir mərtəbədə, qapıbir qonşu kimi yaşadığı evin girəcəyində yaxaladım. Onun imzası ilə yazılmış Mahir Abdullayevə 300 min dollar borcu olması haqqında izahatı Qulu Cəfərova təqdim etdim və ondan Mahirə olan borcunu tələb etdim. O, gözlənilməz görüşdən az qala huşunu itirirdi, and-aman etdi ki, pullar Akif Çovdarovdadır, ondan ala bilərsiniz, mən Akif Çovdarovun taxta-şalban ofisində işləyirəm, mənə çörəkpulu verir. Düzdür, pul mənim imzamla alınıb, ancaq Mahir pulu Akif Çovdarova verib. Mənə Akif Çovdarovun mobil telefonunu verdi və dedi ki, sabah zəng et görüş, o da mən deyənləri deyəcək».



Elşad Abdullayev



Akif Çovdarov

**Elşad Abdullayevin yazdığına görə, Qulu Cəfərovla bu görüşdən 1 gün sonra qara maskalılar onu saxlayaraq, Akif Çovdarovun gizli həbsxanasına aparıblar. Sabiq rektor bu hadisəni belə təsvir edir:**

"Səhərisi günü səhər saat 7-8 radələrində idmana gedəndə evimin qabağında təcili tibb yardım maşınından düşən silahlı qara maskalılar məni zorla maşına saldılar. Qara maskalılardan MTN polkovniki Rəsul Rəsulov, Yaşar Lətifov *(soyadını ola bilər ki, səhv salıram)*, indi həbsdə olan Teymur Quliyev üzlərini açmışdılar. Araz Laçınlı, polkovnik Fikrət Əliyev və general Elçin Quliyevi, Sənan İbrahimovu və Qulu Cəfərovu isə üzlərini açmasalar da, səslərindən və yerişlərindən tanıdım. Məni MTN-in arxa qapısına gətirdilər, lakin ora çatmamış Akif Çovdarovun tapşırığı ilə Masazırdakı şəxsi həbsxanasına apardılar. Bu zaman Elçin Quliyev, Fikrət Əliyev, Araz Laçınlı və Teymur Quliyev MTN-in arxa qapısından içəri girdilər. Rəsul Rəsulov qara maskalı təcili tibbi yardım maşınının sürücüsünə bildirdi ki, «siz professoru Masazır Universitetinə aparın». Yeni Akif Çovdarovun şəxsi həbsxanasına. Bütün günü məni Akif Çovdarovun Masazır həbsxanasında ac-susuz saxladılar, qonşu otaqda elektroşokla 2 nəfərə huşu itənə qədər işgəncə verirdilər, onların ah-naləsinə, yalvarışlarına səs verən yox idi. Təsəvvür edin, Azərbaycan Milli Elmlər Akademiyasında 10 ildən çox baş elmi işçi vəzifəsində çalışmışam, 30 il Bakı Dövlət Universitetinin Hüquq fakültəsində elmi-pedaqoji stajım var, ABU-da rektor işləyirəm, Prezidentin yanında AAK-in Hüquq Ekspert Şurasının sədri vəzifəsində çalışmışam, birdən-birə elə gözlənilməz situasiyaya düşdüm ki, məqam axtarırdım ki, oradan necə qaçım».

### "Mən saxlanan otaqda qan izləri var idi..."

Elşad Abdullayevin yazdığına görə, günün sonuna yaxın Akif Çovdarov onun saxlandığı otağa gəlib. Bu onların ilk canlı görüşü olub. «Akif Çovdarov məni Azərbaycan Beynəlxalq Universitetindəki «qanun pozuntuları» ilə təhdid etməyə başladı. O məni MTN-in Təhsil Nazirliyindəki «Qara qutusu» İlyar Vahabovun yoxlama protokolları, «Təzadlar» qəzetinin baş redaktoru Asif Mərzilinin yazdığı yazılarla gecə saat 2-yə qədər təhdid etdi. Məni qorxu və təəccüb bürümüşdü. Akif Çovdarovun şəxsi həbsxanasında hamı qara maskalı və silahlı idi. O, başa düşəndə ki, artıq mən çəkinirəm, ondan sonra Qulu Cəfərovun Mahir Abdullayevə borclu olması haqqında məsələyə keçdi. Bu zaman əlində avtomat qara maskada Qulu Cəfərov və mənə özünü MTN polkovniki kimi təqdim edən Sənan İbrahimov (MTN-in müavini Hilal Əsədovun qohumu) da otağa daxil oldular. Mən saxlanan otaqda çoxlu qan izləri var idi. Qulu və Sənan üzlərini açmadan tam silahlı vəziyyətdə heç nə danışmadan Akif Çovdarovun komandasını gözləyirdilər. MTN generalı Elçin Quliyev maşından düşəndə bildirdi ki, «Elşad müəllim mənim MTN Akademiyasında müəllimim olub, yaxşı deyil, gəlin mənim otağımda dindirək»...

### "Çovdarov deyirdi ki, Eynulla Fətullayevi öldürməməyimi özümə bağışlamıram"

E.Abdullayev daha sonra A.Çovdarovla arasındakı dialoqun ilginc detallarını açıqlayıb. Keçmiş rektor daha sonra yazır ki, Akif Çovdarov Mahir Abdullayevi tanımadığını, onunla heç bir alış-verişinin olmadığını deyib: "Dedi ki, "nə mən, nə də qohumum Qulu Cəfərov Mahiri tanımırıq, bizim ona heç bir borcumuz yoxdur". Xəbərdarlıq etdi ki, "bir də bu söhbətin üstünə qayıtma. Varsa da bizim Mahirə olan borcumuzu bağışlayırsan. Bir də bu söhbətin üstünə qayıtma elə etmə ki, səni göndərək Mahirin, jurnalist Elmarın, akademik Ziya Bünyadovun, Rail Rzayevin yanına... Jurnalist Rafiq Tağnı necə xəstəxanada qətlə yetirdilər, jurnalist Eynulla Fətullayevin başına gətirdiyi müsübətlərdən elə bil qəhrəmanlıq edibmiş kimi məni təhdid etdi. Xüsusən də jurnalist Eynulla Fətullayevdən cox yanıqlı olduğu üçün özündən asılı olmayaraq ondan yanıqlı danışırdı. O, bildirirdi ki, I bir məsələni özümə bağışlaya bilmirəm. Jurnalist Eynulla Fətullayevi əlimdə imkan var idi öldürmədim. Onsuz da onu da Elmar Hüseynovun və Rafiq Tağının yanına göndərəcəm... Ona qarşı cox kinli-küdurətli idi. O, məqam axtarırdı ki, Eynulla Fətullayevlə də hesablaşsın... İnanın, adam MTN generalı deyil, bir KQB cəlladı və manyakı idi, nə danışdığının fərqində deyildi. «Başa düşmürsənsə bir də başa salaq» deyərək tükürpədici qətllər seriyasından təhdid dolu xəbərdarlıq edirdi. Nə isə, fikirləşirdim ki, necə qurtulum bu faşistlərin əlindən, mənim üçün olduqca ağır və gözlənilməz situasiyaydı. Akif Çovdarovun əmrilə qara "Lexus" cip maşında bir qara maskalı heç bir şey danışmadan məni şəhərin mərkəzindəki evimə gətirdi".

### "Qorxduğumdan əmin olub məni buraxdılar..."

Sabiq rektor yazıb ki, bu hadisədən 3 gün sonra onu MTN-ə çağırıblar. Burda onun nazir Eldar Mahmudovla da görüşü olub. "MTN nazirinin köməkçisi - əmisi oğlu Vüqar Mahmudov səhər saat 9-da mənim mobil telefonuma zəng edib bildirdi ki, sizi MTN-in Baş İstintaq İdarəsinin rəisi Şıxəliyev Mövlan gözləyir. MTN nazirinin qəbul otağına gəldim, oradan da MTN Baş İstintaq İdarəsinin rəisi Mövlan Şıxəliyevin otağına getdik. Məni Mövlan Şıxəliyev və müstəntiq Novruz Məmmədov birlikdə qəbul etdilər. Onlar mənə Mahirin oğurlanmasından suallar verdilər, mən də Akif Çovdarovun söhbətindən sonra heç bir şey danışmadım. Çünki istintaqa qonşu otaqdan Akif Çovdarov və Hilal Əsədov istiqamət verirdilər. Onlar selektor telefon danışıqları ilə məni aşağılayan söyüşlər söyürdülər, bunları açıq -aşkar eşidirdim. Onlar əmin olandan sonra ki, mən Akif Çovdarovun ssenarisi üzrə danışmayacağam, bundan sonra Mövlan Şıxəliyev və müstəntiq Novruz Məmmədovla birlikdə MTN naziri Eldar Mahmudovun iş otağına gəldik. Eldar Mahmudov da məni Mahir Abdullayevin oğurlanması ilə bağlı sorğu-suala tutdu. Qorxduğumdan əmin olduqdan sonra axşam saat 20 radələrində məni MTN-dən buraxdılar. Bir hüquq professoru olaraq, artıq fərqindəydim ki, kimlərlə üzləşmişəm..."

Qeyd edək ki, Elşad Abdullayev bu faktları ilk dəfədir açıqlayır. Sabiq rektor müraciətinin sonunda bir sıra suallara aydınlıq gətirilməsini tələb edir. Müraciətin mediaya açıq yayılan hissəsinə gizli çəkilən 4 video da əlavə edilib.

❑ **Hazırladı: Sevinc TELMANQIZI**



Akif Mustafayev

# Adı "Akula Akif"in şərikitək çəkilən şəxs danışdı

## Vilayət Qələndərli: "Akif Mustafayevlə şərikliyim haqda deyilənlər yalan və böhtandır"

**"Özümə də maraqldır ki, mənim həmin adamla tanışlığım olmaya-olmaya niyə bizi şərik kimi təqdim edirlər. Bunu edənlərin məqsədi nədir anlaya bilmirəm. Mən heç vaxt bina tikib satmamışam". Bu sözləri "Yeni Müsavat"a müraciət edən Vilayət Qələndərli deyib. Qeyd edək ki, ötən saylarımızdan birində "Akula Akif"in şəriki haqda şok bilgilər" sərlövhəli yazıda V.Qələndərlinin keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ən sadiq adamlarından biri, "Akula Akif" kimi tanınan Akif Mustafayevlə şərik olması haqqda məlumat daxil olmuşdu. Məlumatda iddia edilirdi ki, V.Qələndərli A.Mustafayevlə münasibətlərindən istifadə edərək bacanağını və oğlunu işə düzəldib.**

"Bacanağım illərlə həmin idarədə işləyib. Onun rəhbər təyin edilməsinə mənim və həmin o şəxsin hər hansı bir formada rolu yoxdur. Bu sadəcə kimlərinsə uydurmasıdır. Məlumatı verənlər əgər sübut etsələr ki, bizim həmin o, Akif Mustafayevlə hər hansı bir şərikliyimiz olub, mən hamıdan üzr istəyəcəyəm. Mənim Akif Mustafayevlə tanışlığım, şərikliyim haqda deyilənlər yalan və böhtandır. Mənim bir balaca yerim olub, orada kafe işlədirdim. İşlədə bilmədim, ona görə də sökülüb yerində özümə obyekt tikmişəm. Həmin obyektin tikintisində, sonradan işlədilməsində hər hansı bir şərikim olmayıb. Biz çörəyimizi təmiz qazanan, öz zəhmətimizlə qazanan insanlarıq. Xahiş edirik ki, barəmizdə yazılan doğru olmayan məlumatı təkzib edəsiniz" - deyə, o bildirib.

Yada salaq ki, A.Mustafayev özünü iş adamı kimi tanıtsa da, əslində onun əsas vəzifəsi imkanlı iş adamları haqda MTN-dəki mütəşəkkil qruplaşmaya dosye toplayıb çatdırmaqdan ibarət olub. "Akula Akif"nın sxeminə əsasən MTN həmin iş adamları barədə dosyeləri aldıqdan sonra onları izləyir və əvvəlcədən uydurulan qaraşdırılan ittihamlarla həbs edirdi. "Akula Akif" hər belə "əməliyyat"dan sonra dövriyyəyə girib həbs olunan şəxsin yaxınları ilə MTN-dəki qruplaşma arasında vasitəçilik edib. Ona həbs olunan şəxsin yaxınlarından alınan milyonlardan pay veriblər. "Akula Akif" MTN-dən "xilas etdiyi" iş adamlarının biznesinə gələcəkdə bu kimi problemlərdən sığortalanmaq üçün himayədarlıq edib və onların biznesinə 25-30 faiz payla şərik olub.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015



# Putinin ucuz hədələri və İŞİD-in atom silahı

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Emosionallıq sözsüz ki, siyasətçinin zəif cəhətidir. Çünki güclü siyasət impulsiv hisslərlə bir araya sığmaz. Güclü siyasət soyuq məntiq və sakit başla, bir də siyasi fəhmlə verilən qərarlar sayəsində formalaşır. Emosional siyasi gediş uzağı, topluma ünvanlı "5 dəqiqəlik" uğura gətirə bilər. Uzunmüddətli perspektivə hesablanmış uğurlar üçün isə dərin zəka və müdriklik lazımdır.**

Bu qısa girişi Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə qarşı davam edən, böyük siyasətçiyə xas olmayan çılğın, bir az isterik davranışına nəzərən verdik. Şübhəsiz, belə davranış Türkiyədən çox Rusiyanın özünə ziyan vurur və vuracaq. Çünki Ankara Kremldən fərqli olaraq məsələdə siyasi ambisiyalardan yox, ən əvvəl öz vətəndaşlarının mənafeyindən çıxış edir, ağılla, müdrikcəsinə hərəkət edir, yüz ölçüb-bir biçir.

Bu xüsusda gözləmək olardı ki, zaman ötdükcə Kreml başçısı da tədricən soyuq məntiqin diktəsinə tabe olacaq. Fəqət, belə olmadı, sonuncu illik mətbuat konfransı göstərdi ki, Putin dəyişməyib və rus xalqını hələ çox təhlükəli eksperimentlərə, bəlalara mübtəla eləmək niyyətindədir.

Mətbuat konfransında Rusiya lideri növbəti dəfə qardaş ölkənin və Ukraynanın rəhbərliyini, Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilini asıb-kəsdi, hamıya öyüd-nəsihət verməyə çalışdı, qos-qoca Türkiyəni, regional supergücü, qüdrətinə görə Rusiyadan heç də geri qalmayan bir dövləti aşağıladı, hətta hədələdi.

Adama deyərlər, öz hərbi gücünə əminsənsə, niyə 23 gündə Türkiyəyə qarşı heç bir revanş aktı həyata keçirə bilməmisən? Deməli, Türkiyə sənin "yeyəcəyin yem", "sındıracağın qoz" deyil də, qılafına qayıt!

Söz yox ki, təhqiramiz ifadələrin 3 qatını prezident Ərdoğan Putinə qaytara bilər. Ancaq təhqirə Rusiyanın dünyada, regionda mövqeyi, nüfuzu güclənəcəkmi? Rusiyalıların yaşayışı necə, yaxşılaşacaqmı? Qətiyyən. Məsələ də bundadır.

Axı, bunu necə ağıllı, uzaqgörən siyasət adlandırmaq olar ki, Rusiya məhz Putinin hakimiyyətə gəlişindən sonra öz qonşularının əksəriyyəti ilə az qala düşmən münasibətlər səviyyəsinə gəlib, ölkə qeyri-dost ölkələrlə əhatələnib: Ukrayna, Gürcüstan, Türkiyə, Moldova, Baltikyanı ölkələr, sırada kim gələcək? Üstəlik, Putin ölkəsini ağır beynəlxalq sanksiyalara, rusiyalıları əlavə iztirablara tuş edib.

Putinin xəstə məntiqindən belə çıxır ki, bu ölkələrin hamısı, üstəgəl, ABŞ, Avropa Birliyi Rusiyaya qarşı düşmən tövr sərgiləyir, hamı haqsızdır, ədalətsizidir, cin-şeytan qismindədir, bircə Putindən savayı. Fransız diplomatı və mütəfəkkiri Toleyranın məşhur fikrini burada bir daha təkrarlamağın yeri var: "Düşmənlərin sayını artıran diplomatiya yaxşı diplomatiya deyil".

Rusiya prezidentinin belə yanlış diplomatiyası ona gətirdi ki, o, Türkiyə kimi mühüm bir tərəfdaşı itirməklə bahəm, üstəlik, Ankaraya təzədən İsrail kimi bir dövləti qazandırdı - son məlumatlara görə, iki ölkə arasında 5 il öncə korlanmış diplomatik əlaqələr bərpa olunmaq üzrədir, İsraildən təbii qazın alınması barədə də ilkin anlaşma əldə olunub...

***

Girişdə böyük siyasətlə emosiyanın bir araya sığmadığını qeyd etdik. Bunun bir təzahürü də mətbuat konfransında Putinin işlətdiyi "Türkiyənin hazırkı hakimiyyəti ilə anlaşmaq mümkünsüzdür" sözləridir. Halbuki, ifadə ən çox Rusiya rəhbərliyinə adidir: gerçək budur ki, məhz Rusiyanın hazırkı ipə-sapa yatmayan və beynəlxalq qanunları hərləməyən, bir-birinin dalınca öz suveren qonşularının ərazilərini işğal edən Rusiya rəhbərliyi ilə anlaşmaq, dil tapmaq sivil bəşəriyyət üçün müşkülə çevrilib və belə görünür, nə qədər ki, çar Putin hakimiyyətdədir, dünya hələ onun yeni qorxulu sürprizlərini çox görəcək.

Hətta bu günlərdə Qərbin nüfuzlu nəşrlərindən biri yazmışdı ki, Putin imperiya ambisiyaları naminə taktiki nüvə silahına da əl ata bilər. İndi nə fərqi oldu, atom silahını İŞİD partlatdı, yoxsa Putin? İnsanı soyuq ağıl yox, qaynar emosiya idarə edirsə, o da mümkündür, bu da.

**Allah planetimizi əlində kütləvi qırğın silahı olan emosional siyasətçilərdən və onlardan heç də çox təhlükəli olmayan terrorçulardan qorusun.**

# Putin körpüləri yandırdı - ekspertlər danışdı

## "Türkiyəni bu şəkildə təhqir etdikdən sonra geriyə yol görünmür"

**Dekabrın 17-də Rusiya prezidenti sayca 11-ci mətbuat konfransını keçirərək 3 saat 7 dəqiqə canlı yayımda jurnalistlərin suallarını cavablandırdı. Konfransda jurnalistlərin suallarını cavablandıran Rusiya prezidenti bildirdi ki, Su-24 təyyarəsini vurmaqla Türkiyə rəhbərliyində təmsil olunanlar ABŞ-a yaltaqlanmaq məqsədi güdüb. Fikrini ifadə edərkən Putin jarqonlarından istifadə edib:**

"Biz bilmirik ki, bu işdə üçüncü tərəf var, ya yox. Lakin Türkiyə rəhbərliyindən kimsə amerikalıların "uyğun" yerini yalamaq istəyibsə, bunun doğru addım olub-olmadığını bilmirəm. Ümumiyyətlə, bunun amerikalılara lazım olub-olmadığını da bilmirəm".

Əksər politoloqlar Putinin bu ifadələrlə bütün körpüləri yandırdığı qənaətindədir.

"Yeni Müsavat"a açıqlamasında **politoloq Qabil Hüseynli** də bildirdi ki, Putin mətbuat konfransında digər xalqları təhqir edib, onların liderlərinin ələ salıb və etik normalardan uzaq ifadələrlə onları təhqir edib. "Bu xüsusilə Türkiyəyə aid münasibətlərdə özünü göstərdi.Əlbəttə ki, Türkiyədən cavab olacaq. Türkiyənin müttəfiqlərinin də cavab verməsinə çox böyük ehtiyac var. Çünki Türkiyə bölgədə NATO-nun cənub flanqı rolunu oynayır və Türkiyənin başına gələnlər də Rusiya-NATO qarşıdurmasından doğan bir hərəkətdir.

Ona görə də, düzdür, Türkiyə siyasi rəhbərliyində Putinə xas olan əxlaq yoxdur. Onlar daha təmkinli və siyasi müdrikliyə söykənən ifadələrlə cavab verəcəklər. Eyni zamanda dövlətlərarası münasibətləri provokasiya ilə hərbi qarşıdurmaya çəkmək meylləri də müşahidə olunmayacaq".

Politoloqun fikrincə, Putinin əsas məqsədi Türkiyəni provokasiyaya çəkməklə münasibətləri hərbi müstəviyə daşımaqdır: "Putin sözün həqiqi mənasında "vur-vurum" psixologiyası ilə hərəkət edirdi və Türkiyəni provokasiyaya çəkmək istəyirdi. Lakin mən düşünürəm ki, Türkiyənin cavabı hərbi qarşıdurma yaratmağa yönəlməyəcək".



Qabil Hüseynli

**Siyasi ekspert Türkiyə-Rusiya münasibətlərində geriyə dönüşün olmadığını vurğuladı**: "Bu münasibətlərin yaxın zamanlarda qaydasına düşəcəyini söyləmək o qədər də asan deyil. Əgər təyyarə olayından sonra münasibətlər gərgin idisə, Putinin çıxışından sonra daha da gərginləşdi və sağalmaz bir yaraya çevrildi".

**Politoloq Rasim Ağayev** də "Yeni Müsavat" a açıqlamasında Putinin bu çıxışla öz imicinə zərbə vurduğunu qeyd etdi: "Mən həm çox təəccübləndim və həm də təəssüfləndim ki, Putin özünəməxsus olmayan şəkildə danışdı və görünür artıq əsəblərini cilovlaya bilməyib və bu cür xoşagəlməz ifadələr işlədib. Çünki Putin dünyada reytinqli siyasətçilərdən biridir. Təkcə ölkəsində deyil, xaricdə, hətta Amerikada da Putinin reytinqi Obamadan yüksəkdir. O gərək öz reytinqinə xələl gətirməyəydi. O, adətən mətbuat konfransını çox soyuqqanlı şəkildə aparırdı. Bu səviyyədə auditoriya qarşısında, canlı yayımda prezidentin özünü belə aparması heç bir normaya sığmır. Başqa bir tərəfdən Rusiya -Türkiyə münasibətləri böyük bir təhlükə altındadır. Bunun səbəblərindən biri də odur ki, heç bir ölkə vəziyyətin gərginləşməsinə səbəb olan məsələləri yumşaltmağa çalışmır. Siyasi icmalçılarda belə bir düşüncə var idi ki, Türkiyə üzrxahlıq etsəyi, bu münaqişə aradan qalxardı. Ancaq Türkiyə tərəfi üzrxahlıq etməkdə qətiyyətlə imtina etdi və hər iki tərəf qarşıdurmanı tamamilə gərginləşdirmək yolunu seçiblər. Ancaq Rusiya sanksiyalar tətbiq edərkən dövlət səviyyəsində olan layihələrə, atom elektrik stansiyasına və digərlərinə toxunmadı, yalnız orta və xırda biznesmenlərin vəziyyəti gərginləşdi, turizm aradan qaldırıldı".

**Rasim Ağayev hər iki tərəfin müharibəyə hazır olmadığını və belə bir ehtimalın gözlənilmədiyini qeyd etdi:** "Əgər belə münasibətlərin heç bir ölkə üçün perspektivi yoxdur. Bunun sonu iki ölkə arasındakı münasibətlərin tamamilə kəsilməsi ola bilər. Çünki müharibəyə getməyə onların nə imkanları,nə də istəkləri var. Məsələnin yeganə həlli yolu hər iki prezidentin bəyanat yayaraq bir-birindən üzrxahlıq etməsi ilə ola bilər".

**Politoloq Razi Nurullayev** də bu məsələyə münasibət bildirərək, böyük bir dövlətin prezidentinə belə ifadələrin yaraşmadığını qeyd etdi: "Rusiya prezidenti Vladimir Putin mətbuat konfransında Türkiyənin ünvanına təhqir yağdırıb. Dövlət başçısının bu davranışını qətiyyətlə pisləyir və böyük bir dövlətin prezidentinə belə ifadələrin yaraşmadığını bilidirirəm. "Amerikanlara xoş gəlmək üçün Türkiyə hökumətində amerikanların orasını yalamaq üçün kimlərinsə olması" ifadəsi çox pis təhqirdir və bu ifadəni özünə heç bir mədəni dövlət başçısı yaraşdırmazdı. Belə görünür ki, cənab Putin vəziyyətin daha da gərginləşməsində maraqlıdır. Amma bu gərginlik Türkiyə üçün çətin olsa da, bir o qədər də Rusiya üçün problem yaradır. Hazırda Rusiya dünyada təklənmiş durumdadır və yerdə qalan dostlarını da itirmək Putin hakimiyyəti üçün daha acınacaqlı olacaq".

❑ Nərgiz LİFTİYEVA

# Putinin iddia və ittihamları nələrə səbəb ola bilər?

## Elxan Şahinoğlu: "Mətbuat konfransında söylənən fikirlər bir çox dövlətləri Rusiyaya qəzəbləndirə bilər"

**Rusiya prezidenti Vladimir Putin hakimiyyətə gəldiyi vaxtdan ənənəyə çevirdiyi illik mətbuat konfransını keçirdi. Dekabrın 17-də keçirdiyi mətbuat konfransı Putinin illik 11-ci mətbuat konfransı idi. Yüzlərlə jurnalistin qatıldığı mətbuat konfransı televiziyalarla canlı yayınlandı və Putin çoxsaylı suallara özünə xas arxayınlıqla cavablar verdi. Onun bir sıra suallara cavabları isə bəyanat xarakterli hesab edilə bilərdi. İki gündür dünya mediasının diqqət mərkəzində olan mətbuat konfransında Putinin dilindən səslənən bəyanatların, açıqlamaların dünya düzəninə ciddi təsiri olacaqmı**

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Vladimir Putinin mətbuat konfransında verdiyi bəyanatlar, səsləndirdiyi fikirlər xeyli vaxtdır onun dilindən ifadə edilir, ona görə də həmin bəyanatlar yenilik kimi qəbul edilmir və dünya düzənində yeni nələrəsə gətirib çıxarmayacaq. Həmin mətbuat konfransında bir daha məlum oldu ki, Rusiyanın dünyada faktiki olaraq ciddi dostu qalmayıb: "Rusiya prezidenti faktiki olaraq mətbuat konfransı boyunca hər kəsi hədələdi. Amma bir dənə də olsun dost dövlət adını çəkmədi. Mətbuat konfransında söylənən bir çox fikirlər bir çox dövlətləri Rusiyaya qəzəbləndirə bilər. Bundan o tərəfə dünya düzəninə hansısa təsirinin olacağı gözlənilmir. Rusiya prezidenti təkcə Türkiyəni deyil, Səudiyyə Ərəbistanını, Qətəri, Ukraynanı da aşağıladı. Bir dənə də olsun dövlətə təşəkkür etmədi. Bu məqamın özü göstərir ki, artıq Rusiyanın dostu qalmayıb. Məncə, Putinin illik geniş mətbuat konfranslarında məqsədi bunlardır: **1)** Mən ən çətin suallara belə cavab verməyə hazıram; **2)** Mən Qərb liderlərindən fərqli olaraq daha ağıllı və hazırcavabam. **3)** Mən bu yolla daxili və xarici auditoriyaya önəmli mesajlar yollayıram. Son mətbuat konfransında özünü mümkün olduğu qədər arxayın, heç nədən çəkinməyən görkəmdə göstərməyə çalışması da bunlarla bağlıdır".



Elxan Şahinoğlu

**Ekspert vurğuladı ki, bəlkə də əvvəl bu prinsiplər işləyirdi. Ancaq liderə bəzən çox danışmaq və hər suala cavab vermək də ziyanlıdır:** "Putin mətbuat konfransında Ərdoğanı təhqir etdi, Ukraynalıları aşağıladı, Səudiyyə Ərəbistanına ağıl öyrətdi, lakin Rusiya iqtisadiyyatını necə düzəldəcəyinə dair tutarlı yanaşma ortaya qoymadı. Bütün bunlar isə Putinə əlavə divident gətirmədi, əksinə düşmənlərini daha da qıcıqlandırdı. Rusiyada iqtisadi vəziyyət çox ağırdır, xalq bu durumun düzəlməsini gözlədiyi bir vaxtda ölkənin rəhbəri xariclə uğraşır. Belə bir mənzərə şübhəsiz ki, Rusiya ictimaiyyətini getdikcə narazı salır. Putinin mətbuat konfransındakı bəyanatları dünya düzənindəki proseslərdən çox, Rusiyanın daxilinə təsir edə bilər".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015

# Milli Məclis rəhbərliyindən əfv anonsu

## Parlamentdə dəniz sahilinin hasarlanması məsələsi qalmaqala səbəb oldu; deputatlar ABŞ Konqresinə təklif edilən layihəyə də etiraz bildirdilər

**Dekabrın 18-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. Cari məsələlərin müzakirəsi zamanı çıxış edən deputat Sahib Alıyev ABŞ Konqresində Helsinki komissiyasının sədri Kris Smitin hazırladığı layihə haqqında danışdı. S.Alıyev dedi ki, ABŞ və Azərbaycan arasında əməkdaşlıq təkcə bu iki ölkənin maraqlarına xidmət etmir, hətta regionda təhlükəsizliyin təmin olunmasında rol oynayır: "Amma bəzi ermənipərəst konqresmenlər zaman-zaman bu əməkdaşlığa xələl gətirən addımlar atır". S.Alıyev Dağlıq Qarabağ separatçılarının ABŞ Konqresində yüksək səviyyədə qəbul olunduğunu, "Dağlıq Qarabağın təcavüzə məruz qalması barədə bəyanatlar" verildiyini söylədi.**

**O.Əsədov da bu məsələ ilə bağlı fikirlərini səsləndirdi**: "Yarım saat qabaq mənə məlumat verdilər ki, Erməni Milli Komitəsinin *(ANCA)* sədri Aram Hamparyan tvitter səhifəsində Smitlə şəklini qoyub. Qeyd edib ki, Smit onun işini dəstəkləmək üçün Amerika Konqresində görüşlər keçirib. Çox təəssüflər ki, bunun qanun layihəsini bizim bəzi jurnalistlər şok hadisə kimi təqdim edirlər. Nə şok? Onlar o qədər şok deyəcəklər ki, onlar özləri şoka düşəcəklər. Təsəvvür edin ki, bizdə bir komissiya layihə hazırlayır. Bunu şişirtmək düzgün deyil".

**Spiker mediaya da müraciət etdi:** "Xahiş edirəm jurnalistlər ABŞ səfirliyinə müraciət etsinlər. Səfirlik jurnalistlərə açıqlama versin, qoy desin, bu, Amerika hökumətinin, Departamentin mövqeyidir, yoxsa erməni təsiri altında olan bir konqresmenin? Qoy səfir mövqeyini bildirsin bu konqresmenin sözlərinə".

**Bununla belə, O.Əsədov narahatlıq üçün əsas olmadığını bildirdi:** "ABŞ Konqresində Azərbaycanın dostları, ədalətli deputatlar da var. Mən əminəm ki, bu qanun layihəsi keçməyəcək. Burda xüsusi məqsədlər var. Əvvəla, Azərbaycan prezidenti hər il 31 dekabrda əfv fərmanı imzalayır, ilin sonunda da növbəti əfv gözlənilir. Burda məqsəd odur ki, əfv imzalananda desinlər, "biz təsir etdik, əfv verildi". İkinci məqsəd də münasibətlər gərginləşsin, biz də üzə düşək, əfv verməyək, o halda Azərbaycana təzyiqləri artırsınlar. Biz bu məsələlərə çox böyük diqqət verməliyik".

**Komitə sədri Səməd Seyidov** isə "cənab Smit bu qanun layihəsini təqdim edərək böyük bir provokasiyanın əsasını qoyub" söylədi. S.Seyidov dedi ki, Konqresə indiyədək 4 min belə sənəd təqdim olunub, ancaq cəmi 130-u qəbul olunub. Odur ki, bu sənədin qəbul edilməsi mümkün deyil.

**Fəzail Ağamalı** ABŞ Konqresinə etirazını bildirdi: "Düşündürücü odur ki, AŞ PA-nın baş katibi və ABŞ Konqresi fərqli məkandan Azərbaycana qarşı eyni vaxtda hücumlara start veriblər. Mən əminəm ki, bütün bunların arxasında erməni diasporunun təsiri altında olan Con Kerrinin dirijor çubuğu dayanır".

**Deputat Fazil Mustafa** komitə sədri Səməd Seyidova istinad etdi: "Səməd müəllim kifayət qədər aydınlıq gətirdi və son nöqtəni qoydu ki, bu, ABŞ Konqresinin münasibəti deyil.Ona görə də indiki mürəkkəb xarici situasiyanın yarandığı məqamda sərt mövqedən çıxış etməyimiz doğru olmazdı".

**Deputat Qüdrət Həsənquliyev** ABŞ-ın təhdidlərinin arxasında xüsusi məqsədlərin dayandığını vurğuladı: "Bu günlərdə xoş niyyət nümayiş etdirilib, Leyla və Arif Yunuslar azad olunub, əfv fərmanı gözlənilir. Bu prosesin qarşısını almaq, bizə qarşı təzyiqləri artırmaq istəyirlər. Digər tərəfdən biz həmişə olduğu kimi, yenə də qardaş Türkiyənin yanında olduğumuzu bəyan etmişik. Belə bir məqamda ABŞ-dan gələn təhdid həm NATO-ya, həm ABŞ-ın müttəfiqlərinə xəyanətdir, həm də erməni yarınmaqdan başqa bir şey deyil. Bunlar bilirlər ki, əfv olacaq və ona mane olmaq istəyirlər. Əfv olunmayacaqsa da, bizə təzyiqi artırmaq fürsəti əldə edəcəklər. Mən çox istərdim ki, Azərbaycan prezidenti növbəti dəfə humanizm nümayiş etdirsin, əfv imzalasın, baxaq, görək sonra hansı bəhanələr axtarırlar".

**Zahid Oruc** ABŞ-ın Azərbaycana qarşı uzun illər 907-ci düzəlişlə təhdid altında saxladığını da xatırlatdı: "Mən kimisə qorxutmağın və ya baş altına yastıq qoymağın əleyhinəyəm. Amma biz işləməliyik. Sadəcə, ziyafətlər üzərindən deyil. ABŞ-da Azərbaycanın dostları var. Qoy onlar da Ermənistana qarşı bir qanun layihəsi hazırlasın. Biz Amerika ilə işləməliyik".

**Elmira Axundova** dedi ki, Azərbaycanda əvvəllər də əfv fərmanı imzalanırdı, onda da məhbuslar var idi, ancaq belə ajiotaj olmurdu: "Bu gün biz güclüyük deyə, təzyiqləri də artırırlar. Bu dəfə çox maraqlı əfv siyahısı hazırlanır. Bir az da səbir edək, hadisələri qabaqlamayaq".

Sonra digər məsələlərin müzakirəsi başladı. Milli Məclisdəki hərbi qulluqçuların dəfn mərasimlərinin təşkilini nəzərdə tutan layihənin müzakirəsi zamanı **deputat Səyavuş Novruzov** dedi ki, əsgər, gizir və çavuşların dəfn qaydası ümumi olmalıdır: "Biz bir yeni qanun layihəsi hazırlayırıq, onu parlamentə təqdim edəcəyik. Orda göstərilir ki, insanlar eyni qaydada dəfn olunmalıdır, məzarların ölçüsü də eyni olmalıdır. Ancaq bu, bizim hərbçilərimizə aid edilmir".

**Deputat Aqil Abbas** təklif verdi: "Türkiyədə belə bir adət var, şəhid əsgərin harda dəfn olunmasından asılı olmayaraq şəhid məzarlarının üzərinə bayraq qoyulur, hamı bilir ki, həmin məzarlıqda şəhid dəfn olunub. Bəlkə biz də dəfn olunan şəhidin məzarının üzərinə bayrağımızı asaq. Bu da bir ehtiramdır, hörmətdir".

**Parlament sədrinin birinci müavini Ziyafət Əsgərov** "maraqlı təklifdir, gələcəkdə ona da baxmaq olar, niyə də olmasın. Biz hələlik qanunu qəbul edək, sonra dəyişikliklər kontekstində ona da baxmaq olar"dedi.




Torpaq Məcəlləsində dəyişikliklərin edilməsi məsələsinin müzakirəsi zamanı **deputat Fazil Mustafa** dənizin hasarlanmasından danışaraq bildirdi ki, artıq neçə illərdir ayrı-ayrı şəxslər dənizi hasarlayıb: "Yayda da iş adamları çimərliklərdə dənizə girişi məhdudlaşdırır. Çox sayda adamlar dənizi hasarlayıblar, tikinti işləri aparıb, böyük vəsait xərcləyiblər, praktik cəhətdən qanunun icrası çətin olacaq. Məsələyə artıq prinsipial yanaşmaq lazımdır. Layihədə hündürlükdən bəhs olunur. İndi necə olacaq, 4 metrlik hasarlar 2 metrə endiriləcəkmi? Qaradağdan gələndə baxırıq ki, hasarlardan dəniz görünmür, Pirşağı tərəfdə də belədir. Nəhayət ki, bu məsələlərin qarşısı alınmalıdır".

**Elmira Axundova dedi ki, hasarların birdəfəlik sökülməsi üçün müəyyən vaxt lazımdır:** "Sahilboyu daş hasarlar tikilib, onlar artıq şəxsi mülkiyyətdir. Bu qanun onlara da şamil olunacaqmı? Xeyr. Deməli, ancaq bundan sonra tikilən sahilboyu hasarlara şamil olunacaq. Xəzər dənizinin əhəmiyyətli hissəsi artıq hasara alınıb. Deməli, bu qanunun vəziyyəti dəyişmək üçün elə bir əhəmiyyəti olmayacaq. Bilirəm, qanunun geriyə icrası yoxdur, amma icra hakimiyyəti bununla bağlı nəsə düşünməlidir".

**Fuad Muradov** qeyd etdi ki, əgər vaxtilə həmin hasarların və evlərin tikilməsi zamanı nöqsanlar olubsa, müvafiq qurumlar bunu araşdıra bilər: "Sizi əmin edirəm ki, bir çox hallarda həmin hasarların tikilməsi zamanı nöqsanlara yol verilib. Bu, çox ciddi məsələdir. Bu vəziyyət gənclərimizin istirahətinə çox böyük təsir göstərir. Şərait yaradılmalıdır ki, insanlar dənizdən istifadə etsin". **F.Muradov avtomobillərin dəniz kənarında saxlanmasını isə məhdudlaşdırmağa çağırdı:** "Başqa heç bir ölkədə belə vəziyyət yoxdur. Bizdə isə yayda nəqliyyat vasitələrini düz dənizin sahilində saxlayırlar".

**Komitə sədri Eldar İbrahimov** deputatların iradlarını və təkliflərini əsəbi şəkildə qarşıladı və dedi ki, qanunun mahiyyəti bir kənarda qalıb, ayrı məsələlərdən danışılır.

Bundan sonra müzakirələrin dayandırılması təklifləri səsləndi. Fəzail Ağamalı təkidlə söz aldı: "İcazə verin sözümüzü deyək. Burda çox ciddi məsələlərə toxunulur. Bunun üstünü niyə malalayırıq? Dəniz başdan-ayağa hasarlanıb, biz yayda ailə-uşağımızla gedib istirahət edə bilmirik".

Z.Əsgərov isə "söhbət malalamaqdan getmir, bəli, belə problem var, insanları narahat edir, amma bu qanunun predmetinə aid deyil" deyə, reaksiya verdi.

F.Ağamalı əvəzində "Ziyafət müəllim, sizə çox böyük hörmətim var, amma çox xahiş edirəm, bir-birimizə təmkinli yanaşaq" dedi. O bildirdi ki, ictimai maraqları nəzərə almaqla bu məsələyə xüsusi yanaşmaq olar: "Ona görə də mən təklif edirəm ki, Milli Məclis rəhbərliyi də insanların narahatlığını anlayışla qarşılasın və bununla bağlı tədbirlər görsün".

**Zahid Oruc iclası yekunlaşdırmaq istəyənlərə təpki göstərdi:** "Ay yoldaşlar, cəmi 15 gün öncə ilk iclasımızı keçirmişik. Hara tələsirsiniz? Rica edirəm, siz də bizə hörmət edin! Kürəyimizin arxasından bizə nə qədər təzyiq edirsiniz? Bu nə yanaşmadır, bu, nə deməkdir? Hər dəfə eyni vəziyyət yaranır. Kim eşitmək istəmirsə, buyursun getsin. Heç kim burda dövlət əleyhinə fikir söyləmir. Hasar bütövlükdə ölkəni bürüyüb. Qaradağın daşını ölkəboyu daşımışıq. Bu hasarları Ermənistanla aramızda çəksəydik, Çin səddi yaranardı. Mən istərdim ki, biz təkcə dənizin ətrafında yox, həm də öz evimizin ətrafındakı hasarlara baxaq. Bəlkə bir qərar, sərəncam olsun, bu daş hasarlardan xilas olaq. Özümüzü qonşumuzdan qoruyuruq. 150 metrlik qadağanı qoymuşduq, işləmədi. Mahnılardan başqa dənizə nə həsr etmişik ki? Heç həyatını itirən neftçinin də bir abidəsi yoxdur ki, gedib qarşısında gül qoyaq, deyək əllərinizə qurban olaq".

İclasda torpaqların qanunsuz zəbt olunması ilə əlaqədar İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərin edilməsi məsələsi də müzakirəyə çıxarıldı. Komitə sədri Əli Hüseynli layihəni təqdim edərkən dedi ki, yeni qaydalara əsasən cərimə sanksiyaları indiki ilə müqayisədə yüz dəfələrlə artılıb. Belə ki, bundan sonra qanunsuz torpaq zəbtinə görə fiziki şəxslər 4 min, vəzifəli şəxslər 8 min, hüquqi şəxslər isə 40 min manat cərimə olunacaq. Bu hal təkrar törədildikdə cərimə sanksiyaları 50 min manata qədərə artırılır.

**Deputat Çingiz Qənizadə** dedi ki, qanundan kənar tikililər aparılıbsa, bu gün qəbul olunan qanun həmin tikililərə də tətbiq ediləcək: "Dənizin görünüşünü məhdudlaşdıran və qanunsuz aparılan tikililərin hamısına bugünkü qanun şamil olunmalıdır və olunacaq". **Ç.Qənizadə əvvəlki cərimələrin miqdarının olduqca az olduğunu da vurğuladı:** "Elə 15-20 manatlıq cərimələrə görədir ki, dəniz sahilində bu qədər hasarlama işləri aparılıb və qanunsuzluqlar edilib. Biri piyada zolağını keçmədiyi üçün 20 manat cərimə olunur. Ancaq digəri dənizin qırağında hasar çəkir, 15 manat cərimələnir".

**Spiker Oqtay Əsədov** dedi ki, dənizin sahilindəki tikililərin 90 faizi icarəyə verilib, orda özəlləşdirilmiş obyek yoxdur.

**Komitə sədri Eldar İbrahimov** zərərli tərkibli tütün və tütün məmulatları, həmçinin üzümçülük və pambıq məhsullarının idxalına qadağanı və sanksiyaları özündə ehtiva edən əlavə və dəyişiklikləri də təqdim etdi, dəyişikliklər təsdiqləndi.

**Eldar İbrahimov "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsini də parlamentə təqdim etdi və ilk oxunuşda müzakirələr aparıldı.**

❑ **Elşad PAŞASOY**



# Prezidentlərin görüşü nəticə verəcəkmi?

Hüseynbala SƏLİMOV

**Vaxt keçdikcə, dekabrın sonu yaxınlaşdıqca Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ilə bağlı təxminlər nəinki artmırdı, hətta bir az da azalırdı... Hərçənd bu günlərdə görüşün vaxtının və yerinin dəqiq məlum olduğu bildirildi. Onun dekabrın 19-da Berndə baş tutacağı deyildi. Amma Rusiya mənbələri belə görüşün məzmunu ilə bağlı qəti fikir deməyə çətinlik çəkirlər. Onlar da diqqəti belə bir detala yönəldirlər ki, görüş xatirinə görüş keçirmək olar, amma bu, atəşkəs rejiminə daha ciddi əməl etməyə, tərəflərin siyasi mövqelərini yaxınlaşdırmağa təkan verməyəcək...**

İndi Rusiya mənbələrinin prezidentlərin nəzərdə tutulan görüşü barədə yazdıqlarını oxuyanda görürsən ki, bu ölkənin yeddi və yaxud da beş rayonu boşaltmaq məqsədilə bağlı deyilənlər və yazılanlar siyasi dedi-qodudan və əsaslandırılmamış ehtimallardan başqa deyil...

Hətta Rusiya mənbələri bir müddət Azərbaycanda dolaşan məşhur siyasi şaiyəni - ölkələrinin beş rayonun boşaldılması müqabilində Azərbaycanın Avrasiya Birliyinə üzv olmasını tələb etməsi haqdakı söhbətləri də təkzib edir...

Ona görə də indilik heç nə yoxdur. Ortalıqda nə Rusiyanın müvafiq səyləri var, nə də təmas xəttində qənaətbəxş atəşkəs rejimi...

Belə vəziyyətdə də prezidentlərin görüşəcəyi deyilir, amma bu görüş nə verəcək, o, nəyi həll edəcək, bununla bağlı qeyd etdiyimiz kimi, bir yəqinlik yoxdur...

Üstəlik, ABŞ-dan, xüsusən də bu ölkəni Minsk Qrupunda təmsil edən C.Uorlikdən ziddiyyətli xəbərlər gəlir. Bu adamın qondarma DQR "naziri" ilə görüşündən artıq hamı xəbərdardır...

Bu günlərdə isə daha bir açıqlama gəldi. Deyildi ki, C.Uorlik bildirib ki, Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla Dağlıq Qarabağın erməni əhalisinin də fikrini bilmək vacibdir...

Bəlkə də ilk baxışda burada qeyri-adi heç nə yoxdur. Amma məsələ bundadır ki, Azərbaycan qondarma DQR təmsilçilərini tərəf kimi tanımır. Özü də haqlı olaraq belə edir - qondarma DQR qurumları Ermənistanın oyuncağıdır, onlar heç kimi təmsil etmir və edə də bilməzlər. Ona görə ki, Azərbaycan ərazilərinin işğalının arxasında Ermənistan dayanır...

Açığı, amerikalı həmsədrin belə davranışı müəyyən şübhələr yaradır. İlk olaraq ağla gələn budur ki, C.Uorlik özünün diplomatik karyerası haqqında düşünür, ən azı ona görə ki, ABŞ-dakı erməni lobbisi diplomatların təyinatına ciddi şəkildə təsir etmək iqtidarındadır...

Amma başqa bir ehtimal da var. Adətən Minsk Qrupunun hansısa həmsədri münaqişəyə ciddi şəkildə təsir etmək imkanları qazananda digərləri uğur çələngini onun əlindən almağa, prosesi öz nəzarətinə götürməyə çalışır. Ona görə də güman etmək olardı ki, Rusiya elə həqiqətən də nəsə etmək istəyir və bunu görən ABŞ prosesi nəzarətinə götürməyə cəhd edir...

Əvvəlki dövrlərdə bunun şahidi olmuşduq. Fəqət, indi belə ehtimallar üçün ciddi əsaslar yoxdur.

Bir qədər əvvəldə dediyimiz kimi, Rusiya diplomatları ölkələrinin niyyəti və gördüyü işlər barədə azacıq da olsa, informasiya sızdırmırlar. Ona görə də nə qədər çalışsaq da bir ilə yaxındır ki, ölkədə gəzən şaiyələrə inanmaq üçün əsas tapa bilmirik...

İndi qan qaraldan detallardan biri də budur ki, neftin qiyməti ucuzlaşmaqda, dollar isə bahalaşmaqda davam edir. Birinci amil bilavasitə bizim müdafiə imkanlarımıza və hərbi xərclərimizə təsir edir - ölkənin gəlirləri nə qədər çox olarsa o, hərbi xərcləri artırmaq üçün bir o qədər artıq imkan əldə edər... İkinci amil isə manatın gələcəyini müəyyənləşdirmək iqtidarındadır. Bundan həm də iqtisadi "böhran qoxusu" gəlir. Bu, isə ölkənin ümumi durumuna təsir edən detaldır-böhran zamanı çox şey devalvasiya edir...

Elə bu səbəbdən də növbəti il bəd sürprizlərlə zəngin görünür. Təbii ki, tələsmək lazım deyil. Növbəti ilin əvvəlindən başlayaraq ümumi tendensiyanı tutmaq mümkün olacaq...

İndi söylənilənlər isə yalnız ehtimal ola bilər. Onların sayını artırmağın isə elə bir mənası yoxdur...

**Təbii, hökumət prosesləri nəzarətə götürməyə çalışır. Məsəl var, deyir ki, bir yandan bağlanmasa, o biri yandan açılmaz!.. Hökumət Azərbaycanın coğrafiyasını iqtisadi dividentlərə çevirmək və ölkənin tranzit imkanlarından yararlanmaq niyyətindədir. Nə demək olar? Təbii ki, bunu yalnız alqışlamaq qalır - iqtisadiyyat nə qədər güclü, vətəndaşların rifahı nə qədər yüksək olarsa ölkənin müdafiə imkanları da bir o qədər artıq olar...**

**Son günlərdə Qərbin Azərbaycana qarşı təzyiqlərinin artığı açıq şəkildə müşahidə olunur. ABŞ Helsinki Komissiyasının rəhbəri, ABŞ Konqresinin nümayəndələr Palatasının üzvü Kris Smitin hazırladığı layihədə Azərbaycan hökumətinin yüksək vəzifəli üzvlərinə ABŞ vizasının almalarının qadağa edilməsi nəzərdə tutulur. Eyni zamanda AŞPA prezidenti Yaqlandın sərt çıxışı ilə başlanan proses artan xətlə getməkdədir.**



# Sanksiyalar hədəsi siyasi məhbusların taleyinə necə təsir edəcək...

## Qərbin əfv öncəsi addımları birmənalı qarşılanmır; qərarların arxasında duran məqsədlər...



**Səidə Qocamanlı:**
"Qərbin bu proseslərdə öz marağı var"



**Mirmahmud Mirəlioğlu:**
"İqtidar daha ağıllı addım atmalıdır"



**Fariz Namazlı:**
"Sanksiyaların əfv sərəncamları qabağı verilməsi düzgün deyil"

Yeni il qabağı əfv veriləcəyi bildirilir. Belə bir vaxtda bu cür qərarların qəbul edilməsi Azərbaycan cəmiyyəti tərəfindən heç də birmənalı qarşılanmadı. Əvvəllər Avropanın belə addımlarını dəstəkləyən müxalifət camiəsinin də fikirləri təzad təşkil etdi. Qərara qarşı çıxanlar müdafiə edənlərdən çoxluq təşkil edirlər. Gətirilən əsas arqumentlərdən biri də, Azərbaycan hakimiyyətinin əfv sərəncamı verməyə, bir çox siyasi məhbusları azadlığa buraxmağa hazırlaşdığı bir dövrə Avropanın qərarlarının təsadüf etməsidir. Əksəriyyət hesab edir ki, əfv öncəsi belə addımların arxasında hansısa məqsədlər dayanır.

Qeyd edək ki, Yeni ildə tanınmış siyasi məhbuslardan bir çoxunun azadlığa buraxılması barədə cəmiyyət arasında gəzən söz-söhbətlər ən aktual məsələlərdən idi. Tofiq Yaqublu, İlqar Məmmədov, Yadigar Sadıqov, İntiqam Əliyev, Rəsul Cəfərov, Fərəc və Sirac Kərimli qardaşlarının, NİDA-çı gənclərin və başqa bu tipli məhbusların azad ediləcəyi deyilirdi. Son günlərdə Əfv Komissiyasının tez-tez iclaslarının keçirilməsi, qurumun üzvlərinin əfv sərəncamının veriləcəyi barədə ümid dolu açıqlamaları, eləcə də, Leyla və Arif Yunusların azadlığa buraxılması ümidləri pik həddə çatdırmışdı. Belə bir vəziyyətdə Avropadan gələn təzyiqlər lazım idimi? Bu sual beyinləri fəth edib, amma suala cavab hələ də tapılmayıb. O faktdır ki, Azərbaycan hakimiyyəti daim belə təzyiqlərin qarşısında dirəniş göstərir. Qəbul etməli olduğu qərarları bəzən iqtidar məhz bu tipli təzyiqlərə görə ya icra etmir, ya da bir müddətdən sonra həyata keçirir.

**Hazırda siyasi məhbusların azad edilməsi ilə bağlı səylə çalışan hüquq müdafiəçiləri də Avropadan gələn təzyiqlərə təəssüflənirlər. İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı bildirdi ki, belə hadisə ilə üzləşdikləri ilk dəfə deyil**: "May ayında da əfv gözləyirdik. Bütün işlər görülmüşdü. Amma yenə də Qərbin qılınc oynatma siyasəti buna mane oldu. Nəticədə həbsdəki məhbuslar ağır həbsxana həyatını yaşamağa məcbur oldular. İndi də həmin situasiyadır. Onlara xəbər çatıb ki, Azərbaycanda əfv olacaq. Ölkəmiz öz daxilində bu problemi çözməyə qadirdir. Bunu Leyla və Arif Yunusların azad edilməsi sübut etdi. Yenidən bu prosesə mane olmaqdan ötrü Azərbaycanda çaxnaşma yaratmaq istəyirlər. Hər vəchlə əfvin verilməməsinə çalışırlar. Bunların bir prinsipləri var. Azərbaycana nə qədər pis olsa, o qədər yaxşıdır. Qərbin bu proseslərdə öz marağı var. İstəyirlər ki, siyasi məhbuslar azad edilməsin. Bundan ölkəmizə qarşı təzyiq vasitələri kimi istifadə etsinlər. Azərbaycan tərəfindən burada müdrik yanaşma olmalıdır. Belə məsələlərə fikir verməmək lazımdır. Hazırkı vəziyyətdə bu situasiyanın yaranmasında birbaşa rolları olan erməni lobbisindən Qərb öz maraqlarında istifadə edir. Provokasiyaya getməməliyik. Əfv olmalı, insanlar azadlığa buraxılmalı, İşçi Qrupu fəaliyyətinə davam etməlidir. Bunlar ölkəmizin böyüklüyünü göstərə bilər. Ermənistan və Gürcüstan kimi qonşu ölkələrdə məhbuslar olduğu halda Azərbaycan hədəfə götürülüb. Deməli, burada maraqlar var".

**Hüquq müdafiəçisi hakimiyyətin təzyiqlərə fikir verməməsinin vacibliyini vurğuladı:** "İndiki Azərbaycan əvvəlki illərin Azərbaycanı deyil. Məmurların həbsə atılması, işdən çıxarılmaları kimi ağır günlər yaşayırıq. Azərbaycan hazırda ağır durumdadır. Bundan istifadə etmək istəyənlər var. Hər tərəfdən düşmənlərlə əhatə olunmuşuq. Özümüzü elə aparmalıyıq ki, onların əllərinə fürsət verməyək. İşçi Qrupunun təqdim etdiyi siyahıdakı məhbusların azadlığa buraxılmalarına çox ümidliyəm. Təzyiqlər qarşısında böyüklük göstərmək bizə başucalığı gətirər. Azərbaycan daim bu vəziyyətlə üzləşir. Məhbus problemindən qurtulsaq, digər problemlərimizi yüksək kürsülərdən dünyaya çatdırarıq. Amma biz hələ ki məhbus siyahısından yapışmışıq. Hər kəsə göstərməliyik ki, bizimlə diktə dili ilə danışa bilməzlər. Kürklərinə birə düşüb ki, Azərbaycanda əfv olacaq. Bütün bunları səbəbi yalnız budur".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** Azərbaycan hakimiyyətin xarakterinə uyğun olaraq, Qərbin belə addım atdığını söylədi: "Onlar hesablayıblar ki, belə addım atmaqla, hakimiyyəti əfv planından yayındıra bilərlər. Belə çıxır ki, beynəlxalq təşkilatlar ölkəmizdə insan haqlarının əleyhinədirlər? Digər bir versiya da var ki, əfv olacağını dəqiq bilirlər. Hansı məhbusların azad ediləcəyindən xəbərdardırlar. Belə etməklə təzyiqlərinin təsiri ilə məhbusların azad edildiyini göstərmək istəyirlər. Hakimiyyət isə, lazım olan addımı belə kənardan müdaxilə olanda atmayıb. Amma indi iqtidar daha ağıllı addım atmalıdır. Kimin nə deməyindən asılı olmayaraq, vətəndaşına mövqeyini bildirməlidir. Bu şəxslərin həbsində rekertçiliklə məşğul olan MTN-çilərin əllərinin olduğu sübut edilməlidir. İntiqam Əliyevin həbsi zamanı ofisdə əməliyyat aparan qara maskalılar olublar. Bunu hər kəs bilir. Bunları edənlər yavaş-yavaş cəzalarını alırlar. Hakimiyyət daxilində bir qrup var idi ki, iğtişaş yaratmağa çalışırdı. Buna da qismən nail olmuşdular. Artıq bu haradan qaldırılıb. Hesab edirəm ki, məhbus problemi də həll olunacaq. Ağıl bunu diktə edəcək. Başqa bir variant yoxdur".

**Siyasi məhbusların hüquqlarını müdafiə edən vəkillərdən Fariz Namazlı** da indiki anda Qərbdən gələn təzyiqlərin doğru olmadığı qənaətindədir: "Hakimiyyət çalışır ki, daim xaricdə onun haqqında yüksək fikir olsun. Bəllidir ki, bu cür sanksiyalar, çağırışlar hər bir ölkə rəhbərliyini ciddi narahat etməlidir. Bu cür sanksiyalar onları qıcıqlandırır. Hesab edirəm ki, bu sanksiyalar əfv siyahısına salınacaq bəzi məhbuslara mane ola bilər. Əvvəl hakimiyyət bu fikirdə olur ki, məhbusları azad etsin, lakin belə təzyiqlər olan kimi fikrindən daşınır. Əvvəllər belə hallar olub. Bu cür sanksiyaların məhz əfv sərəncamları qabağı verilməsi düzgün deyil. Çünki hökumət bundan müsbət nəticə çıxarmır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015

**Türkiyə və İsrail hökumətləri diplomatik əlaqələrin bərpasına dair ilkin anlaşma əldə edib. Bu haqda ilk olaraq məlumat yayan "Reuters" agentliyi tərəflərin səfirlərin geri qayıtması ilə bağlı razılaşdığını da xəbər verib. Məlumatlara görə, anlaşma İsveçrədə aparılan danışıqlar çərçivəsində baş tutub.**

# Türkiyə və İsrail tarixi anlaşma ərəfəsində - Moskva, Tehran və İrəvan təlaşda

## Səfirlər geri qayıdır; münasibətlərin tam həcmdə bərpası üçün "yol xəritəsi" də hazırlanıb; Ankara-Təl-Əvib-Bakı geosiyasi güc vektoru

Yada salaq ki, iki ölkə arasında diplomatik münasibətlər 2010-cu ildə Türkiyənin Qəzzaya humanitar yük aparan "Mavi Mərmərə" gəmisinə İsrail xüsusi təyinatlılarının hücumu nəticəsində ən aşağı səviyyəyə endirilmişdi. Hücum zamanı 9 Türkiyə vətəndaşı öldürülmüşdü.

İnsidentə görə rəsmi Təl-Əviv sonradan Ankaradan üzr istəsə də, ölənlərin ailələrinə təzminat ödənməsi və bəzi başqa məsələlərə dair tərəflər uzun müddət idi ki, razılığa gələ bilmirdilər. O üzdən də münasibətlər faktiki surətdə dondurulmuş şəkildə qalmaqda idi.

Lakin Rusiyanın "Su-24" təyyarəsinin vurulmasından sonra bölgədə situasiya xeyli dəyişdi və iki mühüm ölkənin - keçmiş strateji müttəfiqlərin yaxınlaşması və anlaşması üçün və onların hər ikisinin faydasına olacaq unikal tarixi fürsət yatandı. Belə görünür, Ankara və Təl-Əviv fürsəti qaçırmamaqda israrlıdır.

***

Bu xüsusda Türkiyə mətbuatı razılaşmanın bəzi detalları açıqlayıb. Bildirilir ki, iki ölkə arasında münasibətlərin tam həcmdə normallaşdırılması üçün heyətlər İsveçrədə bir araya gəlib. İsrail mətbuatı 5 maddəlik bir "yol xəritəsi" qəbul edildiyini də yazıb. Türkiyə tərəfi isə hələlik qəti razılığın olmadığını bəyan edir. İsrailin "Haaretz" nəşrinin yazdığına görə, Sürixdə keçirilən görüşdə hələlik bəzi detallar üzərində iş davam edir. "Yol xəritəsi"ndə isə aşağıdakı maddələr yer alıb:

**1.** İsrail "Mavi Mərmərə"da zərərçəkənlərə və qurbanlara görə 20 milyon dollarlıq təzminat fondu yaradacaq.

**2.** Türkiyə və İsrail qarşılıqlı olaraq səfir təyin edəcək.

**3.** "Mavi mərmərə" hücumu ilə bağlı İsrail hərbçilərinə qarşı qaldırılan məhkəmə dayandırılacaq.

**4.** Türkiyə "Həmas" lideri Salih əl-Aruriyi deportasiya edəcək və təşkilatın Türkiyədəki fəaliyyəti məhdudlaşdırılacaq.

**5.** Türkiyə və İsrail təbii qaz sahəsində işbirliyinə gedəcək. Türkiyə İsraildən təbii qaz alacaq. İsrail Türkiyədə inşa ediləcək boru xətti ilə Avropaya qaz nəql edəcək.

***

Türkiyə ilə İsrail arasında yaxınlaşma istiqamətində son vaxtlar intensiv danışıqların getdiyi barədə bir neçə nüfuzlu mənbə xəbərlər yaymaqda idi. İsrailin baş naziri Benyamin Netanyahu isə bütün bunların fonunda iki ölkə arasında qaz xəttinin inşası ilə bağlı razılıq əldə oluna biləcəyini söyləmişdi. O, bu məqsədlə rəsmi Ankara ilə danışıqlar aparıldığını da vurğulamışdı.



Belə bir boru xəttinin inşası və Türkiyəyə qaz satışının reallaşması 5 ildir gündəmdə olsa da, iki ölkə arasında yaşanan məlum olay layihənin donmasına səbəb olmuşdu. Netanyahunun son açıqlaması və Ankaranın Rusiyadan 55 faizlik qaz asılılığını azaltmaq yönündə hərəkətə keçməsi ümid yaradırdı ki, proses yerindən tərpənəcək. Axı, söhbət 10 milyard kubmetr qazdan gedir. Bu isə Türkiyənin Rusiyadan idxal etdiyi 30 milyard kubmetr qazın 1/3 deməkdir.

"Türkiyə-İsrail münasibətlərinin normallaşması Ankaraya Rusiyadan enerji asılılığını azaltmaq üçün bu ölkədən təbii qaz almağa imkan verəcək". Bunu "Bloomberg" agentliyinə Türkiyə hökumətindəki iki məlumatlı qaynaq bildirmişdi. Məlumatlara görə, bundan başqa, Türkiyə Kipr adasının birləşməsinə də tərəfdardır və bunun üçün həm türk, həm də yunan icması ilə danışıqlar aparır. Ona görə ki, perspektivdə həm İsraildən, həm də Kiprdən təbii qaz idxalı Türkiyənin öz mənbələrini müxtəlifləşdirməsi və Şərqlə Qərb arasında əsas tranzit məntəqəsinə çevrilməsinə şərait yaradacaq.

***

Beləliklə, bölgədə İran, Rusiya və Ermənistanı qətiyyən məmnun etməyəcək yeni İsrail-Türkiyə və üstəgəl, Azərbaycan güc vektoru ortaya çıxmaqdadır. Doğrudur, "Yol xəritəsi" bütün bəndlərinin hələ razılaşdırılmadığı deyilir. Lakin artıq "buz yerindən tərpənib" və böyük ehtimalla, proseslər geridönməz xarakter alacaq.

Proses isə Azərbaycanın da köklü maraqlarına uyğundur. Birincisi, bizim milli təhlükəsizlik maraqlarımız diktə edir ki, Türkiyə harada, Azərbaycan da orda olsun. İkincisi, İsrail Bakı-Ceyhan xəttindən neft alır və ölkəmizdən ötrü önəmli silah satıcısıdır, o sırada iki ölkə arasında hərbi-texnoloji əməkdaşlığın digər sahələrində ciddi əlaqələr mövcuddur.

Üçüncüsü, beynəlxalq yəhudi lobbisi Dağlıq Qarabağ məsələsinin ədalətli həllində, saxta soyqırım iddialarının dünyanın gündəmindən çıxarılmasında Bakı və Ankaraya sanballı dəstək vermək, erməni diasporunun fəaliyyətini neytrallaşdırmaq gücündədir. Yeri gəlmişkən, Türkiyə ilə soyuq münasibətlərə rəğmən, bu il aprelin 24-də İsrail İrəvana nümayəndə heyəti göndərməmiş, o vaxtkı xarici işlər naziri Avidqor Liberman isə tarixdə erməni soyqırımının baş vermədiyini söyləyərək İrəvanı qəzəbləndirmişdi.

**Nəhayət, köhnə-yeni geosiyasi vektorun güclənməsi bölgədə Rusiya-İran-Ermənistan vektorunun Azərbaycan və Türkiyə əleyhinə təhlükəli planlarına qarşı daha effektli immunitet yarada, çəkindirici amil ola bilər. Söhbət həm də təhlükəsizlik sahəsində qiymətli informasiya mübadiləsindən gedir.**

❑ **Analitik xidmət**

# Azərbaycanı ermənilərə satan İran generalı...

## **Sülhəddin Əkbər:** "Füzulidə olduğum zaman eşitdim ki, diplomatik toxunulmazlığı olduğu üçün çox təəssüf ki, həmin şəxsi buraxıblar"



Siyavuş Novruzov

**Yeni Azərbaycan Partiyası icra katibinin müavini, deputat Siyavuş Novruzov** APA-ya müsahibəsində İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədr müavini, general Mənsur Həqiqətpurla bağlı ilginc faktlar açıqlayıb.

S.Novruzov bildirib ki, Mənsur Həqiqətpurla bağlı Azərbaycanda cinayət işi qaldırılıb və o, bizim ölkənin ərazisinə daxil olduğu halda həbs ediləcək.

**Sitat:** "O bizim hərbi hissələrə gedərək Azərbaycana aid hərbi məntəqələrin yerlərini müəyyənləşdirib və gizli ermənilərə ötürüb. Bununla bağlı 1994-cü ildə Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyində cinayət işi qaldırılıb. Ona görə də Həqiqətpur Azərbaycana gələ bilmir, çünki gəldiyi təqdirdə həbs olunacaq. Azərbaycan Müdafiə Nazirliyinin o vaxtkı rəhbərliyi onu maşınla da təmin edib. Həqiqətpur o vaxt İranın burada səlahiyyətli hərbi nümayəndəsi olub. İran İslam İnqilabı Keşikçiləri Korpusunun generalı, peşəkar kəşfiyyatçıdır. Həqiqətpurgil Bakının "8-ci kilometr" ərazisində Naxçıvani küçəsi, ev 38 a, mənzil 36-nı 1992-ci il mayın 27-dən kirayələyib, məlumatları da oradan ötürüblər. "QAZ 31" və "Niva" markalı, c 01 57 az nömrəli maşında gəziblər. Onunla işləyən adamlar həbs olunub, ifadələri məndədir. Bu işin, bu dəstənin də başında İran ordusunun generalı Həqiqətpur dayanıb.

O vaxt onunla çalışan insanların izahatları da var, xeyli fakt toplanıb. Onların arasında Azərbaycanın bəzi regionundan, o cümlədən Nardarandan olanlar da var. Onları özü ilə İrana aparıb gətirirmiş. Həmin şəxslər özləri də etiraf edirlər ki, o vaxt Həqiqətpurun dəstəsi İranda onlara təlim keçəndə o təlimlərdə ermənilər də iştirak ediblər. Təlimlər isə Azərbaycana qarşı təxribatlar həyata keçirməkdən ibarət olub. İranda indi də bəziləri Nardarandakı inanclı insanları müxtəlif yolla təsir altına salmaq istəyir".

Məsələ ilə bağlı musavat.com-a **milli təhlükəsizlik nazirinin sabiq müavini Sülhəddin Əkbər** danışıb. O bildirib ki, çalışdığı zamanda bir nəfər İran diplomatı uğurlu əməliyyat nəticəsində saxlanılmışdı: "Bu, o dövrə təsadüf edirdi ki, həmin vaxt Füzuli rayonunda vəziyyət çox ağır idi. İş elə gətirdi ki, Füzuliyə getməli oldum. Həmin əməliyyatı rəhbərliyimlə tabeliyimdə olan idarə həyata keçirirdi. Ancaq Füzulidə olduğum zaman eşitdim ki, diplomatik toxunulmazlığı olduğu üçün çox təəssüf ki, həmin şəxsi buraxıblar. Adətən kəşfiyyatda əməkdaşı qorumaq üçün ona diplomatik toxunulmazlıq verirlər. O hərbiçi idi. Sonradan bəlli oldu ki, toxunulmazlığı var. Əməliyyat elə peşəkarlıqla həyata keçirilmişdi ki, məlumat ötürülən şəxs elə kompüterin arxasındaca yaxalanmışdı. Heç imkan tapıb kompüteri söndürə də bilməmişdi. Ötürdüyü informasiya da ekranda qalmışdı. O zamanlar bu cür hadisələr baş verirdi. Bizim dövrümüzdə bir nəfər İran diplomatı saxlanılıb. İndi tam olaraq xatırlamıram həmin şəxs Mənsur Həqiqətpur idi, yoxsa başqa birisi".

**S.Əkbər İran diplomatlarının hazırda Azərbaycana təsir imkanlarından da danışaraq bildirib:** "Azərbaycan müstəqillik qazandığı ilk gündən, yəni sərhədlər açılan andan İranın hərbi və dini kəşfiyyatı ölkəmizdə çox aktiv fəaliyyət göstərir. Təxminlərimə görə hazırda da onların Azərbaycan üzrə çox güclü şəbəkələri var. Bu şəbəkələrin isə ən güclü olduğu yerlərdən bəlkə də birincisi Nardarandır".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015



# Milli Təbəssüm Nazirliyi

Zamin HACI
zaminhaci@gmail.com

"Yazıq o şəxsə ki, qaraqabaqdır,
Nə gözəl yaraşır insana gülmək!"
*(Mikayıl Müşfiq demişdir)*

**Keçmiş MTN-in keçmiş generalı Akif Çovdarov tutulandan sonra onun kriminal əlaqələri haqda çoxlu yazılar çıxdı, hələ də davam edir. Mən o yazılardan birindəki cümləni heç unuda bilmirəm. Kimsə təkzib vermişdi, deyirdi ki, belə işlərə qarışacağı yoxdur, bunu xüsusi vurğulamaq, bir növ təkzibi gücləndirmək üçün bu cümlədən yararlanmışdı: "Akif Çovdarovun üzünü də görməmişəm".**

Rəhmətliyin oğlu, kim onun üzünü görmüşdü ki? Görənlər nağıl qəhrəmanları kimi daşa dönürdülər. Çovdarovun üzünü axırıncı görənlərdən biri jurnalist Aqil Xəlil olmuşdu, canını güclə qurtarmışdı. Aqil bəyi Bakıda polisin xüsusi təyinatlı dəstəsi qoruyurdu! Ta aeroportda jurnalisti təyyarəyə mindirib Fransaya yola salana qədər hamımız ürəyimizi yemişdik. Çovdarov belə bir dövlətçilik əfsanəsi idi.

Üstəlik, məsəl var, deyir igidin adını eşit, üzünü gör. Yəni əsas ad qazanmaqdır, üzü sonradan görmək olar. İndi, maşallah, Çovdarovun və başqa MTN zabitlərinin çoxlu şəkilləri çıxıb, hamımız baxıb feyziyab oluruq. Maraqlı ittihamlarla bəzədilən bu üzlər bizim xoşbəxt gələcəyimizin qaranquşlarıdır.

Örnək üçün, iki-üç gün qabaq qəzetdə Müəllimlər İnstitutu Mingəçevir filialından bir müəllimin şikayəti vardı. Deyirdi rektor Eldar Mahmudovla əlbir olub onu sıxışdırıb, işdən qovub. Daha sonra Xalça Muzeyində yeyintilər, direktorun qədim xalçaları satıb yerinə "Sədərək"dən alınan palaz-malaz asması ortaya çıxdı. Hətta mədəniyyət naziri muzeyin direktorunu işdən qovdu və dedilər... bu da Mahmudovun bandasına daxil imiş!

"Bu qədər olmaz" düşünsən gərək ardını oxuyardın. Sən demə, Mahmudov və Çovdarov almaz, brilyant həvəskarı olduqlarından Cənubi Afrika Respublikasında səfirliyimizi açıb ordan qiymətli daş-qaş gətirirmişlər. İnandırıcı söhbətə oxşayırdı, çünki Azərbaycanla CAR-ın illik ticarət dövriyyəsi 2 milyon dollar imiş. Bu cür kiçik miqyaslı əlaqə üçün dövlətin səfirlik nəyinə lazım idi? Kiçik respublikayıq, bizə hər ölkədə səfirlik açmaq, bunun xərcinin-borcunun altına girmək vacib deyildi. Ancaq Elmar Məmmədyarovu ofşor hesablara görə Panama səfərinə yollayanlar niyə Eldar müəllimin "üç kiloluq bankada almaz" daşımaq üçün Afrikada səfir saxlamasına pis baxsınlar? Normal bir haldır bizim üçün. Camaat hətta uşağının oxuması üçün ayrıca universitet açır. İstəsən bunu dövlətin təhsilə diqqət və qayğısı kimi qeyd edə bilərsən.

Kim bilir, bəlkə bizim Amerikadakı səfirliyi də hansısa nazir dollar gətirmək üçün açdırıb? Yaponiyada səfirliyimizin məqsədi bir oliqarxın uşağına robot yığdırmaq olmasın? Fransa ilə diplomatik əlaqələrimiz hansısa dövlət xadiminin arvadına təzə çıxan paltarları alması məqsədiylə yaradılmış ola bilərmi? Kim bilir... İstəsən gülə də bilərsən bu sxemlərə. Bu da dövlətin qayğısıdır, çünki alimlərin araşdırmasına görə gülüş ömrü uzadır.

Ciddi araşdırmadır. Sən demə, qabaqlar insanlar ortalama gündə 18 dəqiqə gülürmüş. İndi isə 6 dəqiqədən az gülürlər. Gülüş ürək və ağciyərlər üçün əla məşq imiş. Gülərkən ürək döyünməsi tezliyi artır, beyin isə dincəlir. Xəstəliklərin 70 faizi stressdən yaranır, gülüş isə stressə qarşı ən yaxşı dərmandır. Özü də ən xeyirli gülüş ağızı ayırıb bərkdən gülmək imiş! Cokonda təbəssümü, dodaqucu gülüş, boğazda pıqqıldama-filan işə yaramır, gərək qaqqıltı ilə güləsən.

# MTN və Rabitə Nazirliyindəki istintaqla bağlı şok xəbərlər

**Sabiq milli təhlükəsizlik, eləcə də işdən çıxarılan rabitə və yüksək texnologiyalar naziri (RYTN) haqda həbs qərarı hazırlanır. Məlumata görə, Eldar Mahmudovdan sonra sabiq rabitə naziri Əli Abbasov barəsində də faktiki ev dustağı edilməsi barədə qərar verilib.**




# İki sabiq nazirlə bağlı müdhiş həbs planı - niyə səhlənkarlıq maddəsi?

## Eldar Mahmudovdan sonra sabiq rabitə naziri Əli Abbasov barəsində də faktiki ev dustağı edilməsi barədə qərar verilib; indi istintaqın işi o qədər qəlizləşib ki, RTYN-də həbs edilənlər həm də MTN işi üzrə istintaqa da ifadə verməli olurlar; **YAP funksioneri:** "Hər iki keçmiş nazir həbs olunacaq..."

Maraqlıdır ki, Ə.Abbasovun uzun illər rəhbərlik etdiyi nazirlikdə MTN generalları da yaxından iştirak edib, bu qanunsuz əməllər çox zaman onların bilavasitə göstərişi ilə həyat keçirilib. Yəni indi istintaqın işi o qədər qəlizləşib ki, RTYN-də həbs edilənlər həm də MTN işi üzrə istintaqa da ifadə verməli olurlar. MTN işinə görə həbsdə olanların bəziləri isə Rabitə Nazirliyindəki istintaqda da dindirilirlər. Çünki RYTN-nin rəhbərliyindəki bəzi şəxslər də MTN-in sabiq rəhbərliyinin iş adamlarının sıxışdırılması, vətəndaşlarının hüquq və azadlıqlarının qanunazidd şəkildə məhdudlaşdırılması, ayrı-ayrı şəxslərin qanunsuz təqib edilməsi və dinlənilməsi kimi əməllərinə cəlb ediliblər.

Eldar Mahmudovu "fağır nazir" kimi tanınan Əli Abbasovla birləşdirən başqa ilginc faktlar da istintaqa məlum olub. Belə ki, son illər Ə.Abbasov da xeyli müstəqilləşmiş, Mahmudovun Prezident Administrasiyası ilə konfliktlərdə tərəfə çevrilmiş, vergi və audit yoxlamalarını ciddiyə almırmış. Məhz bu səbəbdən də nazirlikdə və ona tabe idarə-müəssisələrdə korrupsiya tüğyan edirmiş. Əli Abbasov "Mahmudovun prezidentin göstərişi ilə hərəkət etdiyinə" inanırmış və MTN şefinə çox güvənirmiş. Mahmudov isə əksinə, Ə.Abbasova heç vaxt lazımınca güvənməyib, onu zəif xarakterli hesab etdiyindən nazirlikdə özünə daha etibarlı ələqələr qurub.

Hazırda bu məsələlərlə bağlı Baş Prokurorluq tərəfindən istintaq-təhqiqat işləri davam etdirilir. Başlanmış cinayət işi üzrə RTYN-in 10-dan çox əməkdaşı barəsində həbs-qətimkan tədbiri seçilib.

Dekabrın 4-də Beynəlxalq Bankın İdarə Heyətinin həbs edilən sabiq sədri Cahangir Hacıyev "Eldar Mahmudov haqda ifadə verməmişəm" desə də, qudaların kreditlərin mənimsənilməsində əlaqələri üzə çıxarılması istiqamətində intensiv iş gedir. C.Hacıyevin hələ də DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanmasının səbəbi həm də bu əlaqələrin çözülməsi ilə bağlıdır. İstintaqdan bilgili mənbənin sözlərinə görə, C.Hacıyev qudasının kreditlərin verilməsində suçsuz olduğunu həqiqətən də israrlı şəkildə rədd edir. Bu isə daha çox C.Hacıyevə əvvəlcədən hazırlaşdığı "ev tapşırığı" hesab olunur. Yəni mart ayından dekabradək azadlıqda qalan C.Hacıyev E.Mahmudovu "Beynəlxalq Bank işi"nə qatmamağa çalışsa da, MTN-dəki həbslərdən sonra bu kifayət qədər çətinləşib. Çünki bir neçə sahibkar MTN-in təcridxanasından qurtulmaq üçün borclarını Beynəlxalq Bankdan "götürülmüş" kreditlərlə ödəyiblər. Belə xəbərlər var ki, həbs edilən keçmiş "mahmudovçular" sahibkarlardan kredit sənədinə qol çəkməklə azad edildiklərini istintaqda etiraf ediblər. Yəni C.Hacıyevin qudasını istintaqın əlinə verməməsi prinsipcə, E.Mahmudovun gələcək taleyində heç nəyi dəyişmir.

Daha bir sensasion məlumat budur ki, hər iki sabiq nazir ilkin olaraq səhlənkarlıq maddəsi ilə həbs ediləcəklər. Çünki hər iki nazirlikdə həbs edilənlərin arasında 6-7 general (MTN), idarə və müəssisə (RYTN) rəhbərləri var. Bu səviyyədə ağır cinayətlərdə sabiq nazirləri "təmiz saxlamaq" cəhdi varsa, bu yenə də onları məsuliyyətdən yayındırmır. Cinayət Məcəlləsində bununla bağlı səhlənkarlıq maddəsi var. Onların ilkin olaraq səhlənkarlıq maddəsi verilməsi iqtidarın da marağındadır. Bu, hər iki quruma nəzarət edən digər orqanların da maraqlarına uyğundur. Onları konkret cinayətlərə görə yox, səhlənkarlığa görə həbs edilməsi "hara baxırdılar" iradları ilə üzləşənləri də rahatladır. İstintaqda isə sabiqlərə ağır ittihamlar irəli sürülə bilər...

**Yeri gəlmişkən, YAP icra katibinin müavini Siyavuş Novruzov APA-ya müsahibəsində sabiq nazirlər haqqında da danışıb. "Bəziləri yolunu azdı, tamah ardınca başqa istiqamətə getdi. Biz də bu gün şahidi oluruq ki, həmin insanlar cəzalandırılır. Hər iki qurumda baş verən bu hadisəyə hərə bir cür yanaşır. Təbii ki, burada xəyanət də, vəzifə səlahiyyətlərini aşma da, cinayət də var və sair. İndi bununla bağlı istintaq gedir və nəticəsi məlum olacaq. Onların verdiyi ifadələr göstərəcək ki, hər iki keçmiş nazir həbs olunacaq, ya yox"deyə, YAP funksioneri bildirib. S.Novruzov aidiyyəti orqanların məsuliyyəti haqda da danışıb. "Aidiyyəti strukturlar gərək vaxtında o qurumlardakı halları görüb, məsələ qaldıraydılar ki, bunlar daha da dərinə getməsin" deyib...**

**❑ "Yeni Müsavat"**

# Mərkəzi Bank 8 gündə bazara 750 milyon dollar çıxarıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) dünən, dekabrın 17-də mütəşəkkil banklararası valyuta bazarına təxminən 153 mln. ABŞ dolları həcmində valyuta intervensiyası həyata keçirib. Bununla da bu həftənin ilk 4 iş günü ərzində AMB-nin valyuta satışı 493 mln. dollara çatıb.**



"Report" xəbər verir ki, həftənin ilk günü *(dekabrın 14-də)* satış 102 mln. dollar, ikinci gün (dekabrın 15-də) 101 mln. dollar, üçüncü günü (dekabrın 16-da) isə 137 mln. dollara yaxın olub. Orta hesabla bu həftə gündəlik valyuta intervensiyası 123,25 mln. dollar təşkil edib. Bu, keçən həftənin analoji göstəricisi ilə müqayisədə 93% çoxdur.

Son bir ildə Mərkəzi Bankın həyata keçirdiyi aylıq valyuta intervensiyasının orta həftəlik göstəricidən məlum olur ki, bu həftə həmin orta göstərici rekord həddə çatıb. Nəzərə almaq lazımdır ki, bu günün satış həcmi hələ dəqiq olmadığına görə, bu həftənin göstəricisinin daha da artacağı gözlənilir.

Qeyd edək ki, ötən həftənin çərşənbə axşamı (dekabrın 8-də), Azərbaycan Dövlət Neft Fondunun valyuta satışını dayandırmasından sonra bazarda əməliyyatlara başlayan AMB, keçən həftə ərzində ümumilikdə (4 günə) 255 mln. dollar həcmində satış həyata keçirib. Bununla da keçən həftə orta günlük satış 63,75 mln. dollar olub. Son 8 iş günü ərzində isə AMB-nin ABŞ valyutasının satışı təxminən 748 mln. dollar təşkil edib. Nəticədə, dekabrın 1-nə 6,2 mlrd. dollara bərabər olan AMB-nin valyuta ehtiyatları 5,5 mlrd. dollara yaxınlaşıb.

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015

# ABŞ-dan sanksiya hədəsinin pərdəarxası...

## Ekspertlər Konqresə təklif edilən layihənin nələrə səbəb ola biləcəyi barədə ciddi proqnozlar verdilər

**ABŞ Konqresi nəzdində fəaliyyət göstərən Helsinki Komissiyasının Azərbaycan rəsmilərinə qarşı viza məhdudiyyətini və ölkəmizə maliyyə sanksiyalarını nəzərdə tutan qanun layihəsini təqdim etməsi ABŞ-ın Azərbaycana "soyuq müharibə" elan etməsi kimi qəbul edilir. Virtualaz.org saytının baş redaktoru Eynulla Fətullayev bu barədə yazdığı geniş məqalədə bildirib ki, ABŞ Konqresi yanında Helsinki Komissiyasının hazırladığı qanun layihəsi bütün Azərbaycana savaş elan etməkdir. Qətnamənin mətnini diqqətlə oxuyanda birmənalı nəticəyə gəlirsən:**



"Azərbaycanda demokratiya barədə" adlı qanun layihəsindəki ən sərt məsələni, yəni ölkənin hazırkı siyasi isteblişmentinin bütün üzvlərinə - prezidentə, baş nazirə və onun müavinlərinə, komitə sədrlərinə, nazirlərə, Prezident Administrasiyasının və xüsusi xidmət orqanlarının əməkdaşlarına, hakimlərə, digərlərinə, eləcə də onların ailə üzvlərinə viza verilməsinə qadağa qoyulması məsələsini hələ bir kənara qoyaq. Bu, bütün Azərbaycan dövlətinə qarşı yönələ biləcək aqressiv addımlar kompleksində yalnız bir, özü də əhəmiyyətsiz ştrixdir.

**Sənədin əsas bəndi budur: Azərbaycan hökuməti ilə bütün iqtisadi əlaqələri, o cümlədən enerji sektorundakı əməkdaşlıq münasibətlərini dərhal kəsmək!**

Qanun layihəsi Azərbaycan hökumətinin hətta humanitar və tibbi layihələr də daxil olmaqla bütün layihələrinin ABŞ-ın dövlət orqanları tərəfindən maliyyələşdirilməsinə qadağa qoyulmasını da nəzərdə tutur.

Lakin bu da amerikalıların qanun layihəsinin ən amansız və xain tərəfi deyil. Burada söhbət həm də "Azadlığa Dəstək Aktı"na (Freedom Support Act) 907-ci düzəliş üzərinə qoyulan vetonun aradan qaldırılmasından gedir. Həmin düzəliş Azərbaycan hökumətinə yardım göstərilməsinin "Ermənistana və Dağlıq Qarabağa embarqo tətbiq etməsi və aqressiv münasibət göstərməsi səbəbindən" məhdudlaşdırılmasını nəzərdə tutur.

Azərbaycana qarşı açıq-aşkar düşmənçilik edən olan bu qanun layihəsinin hazırlanmasında nüfuzlu erməni diasporunun da əlinin olması elə bu paraqrafdan da aydın görünür.

Bundan sonrakı bəndlər isə daha pisdir. Qanun layihəsi ABŞ-ın İnkişaf və Ticarət Agentliyinin Azərbaycandakı fəaliyyətinə qadağa qoymağı nəzərdə tutur. Burada söhbət həm də Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) təsisatlarının Azərbaycan hökuməti ilə əməkdaşlığına qadağa qoymaqdan gedir. ABŞ hökumətinə tövsiyə olunur ki, Azərbaycanın beynəlxalq maliyyə-kredit institutlarındakı (BVF, Dünya Bankı və s.) bütün layihələrinə veto qoysun.


Sülhəddin Əkbər


Şahin Cəfərli

Layihəyə görə, Azərbaycan hökumətinin, həmçinin hökumət üzvlərinin maraqlarına aidiyyəti olan, onların qohumları, üstəlik hökumətlə bu və ya digər dərəcədə bağlı olan işgüzar dairələrin bütün bank hesabları dondurulmalıdır. Ölkənin xaricdəki bütün daşınmaz əmlakına həbs qoyulur, Azərbaycanın xaricdəki bütün biznes qurumlarının fəaliyyətinə qadağa tətbiq edilir".

Layihənin tam olaraq şəxsən oxuduğunu vurğulayan E.Fətullayev qeyd edib ki, nu qanun layihəsi qəbul olunsa, "Azərbaycan rəhbərliyi ilə sıx münasibətləri olan" bütün biznesmenlərin təkcə ABŞ-dakı yox, bütün Qərbdəki bank hesablarına həbs və qadağa qoyulacaq. Vaşinqton AYİB-in Azərbaycanla əməkdaşlığına qadağa qoyulmasını göstərməklə buna artıq eyham vurub: "Maqnitski qanunu" əsasında sanksiyaların tətbiqi təcrübəsinin də göstərdiyi kimi, ABŞ-dan sonra oxşar sanksiyaları bir qayda olaraq onun balaca qardaşı-Avropa İttifaqı da tətbiq edir.

Qanun layihəsində Azərbaycanla iqtisadi əməkdaşlığa qadağa qoyulmasına dair xüsusi paraqraf da var. Qətnamə layihəsini təhlil edəndə əmin olursan ki, ABŞ indiyə qədər heç bir ölkəyə, o cümlədən Rusiya və İrana qarşı bu qədər sərt və açıq düşmənçilik ruhunda qanun layihəsi qəbul etməyib. Çünki bu layihədə bütün hökumət üzvlərinin və bütün hakimiyyət qollarının nümayəndələrinin, həmçinin onların ailə üzvlərinin adı yer alır. Onlar Qərbə, indiki halda ABŞ ərazisinə yalnız Qarabağ danışıqları aparmaq üçün gələ bilər. Diqqət edin, bu da ümumdünya ermənilərinin maraqlarına xidmət edən növbəti tezisdir. Yəni əgər Qarabağı vermək istəsəniz, sizi hörmət-izzətlə qarşılayarıq!"

**E.Fətullayev Konqresin bu layihəni qəbul etməyəcəyi ehtimalının çox az olduğunu bildirib:** "Belə görünür ki, Konqres bu qanun layihəsini fevralın sonunda, yaxud martın əvvəlində hər halda qəbul edəcək. Dinləmələrin dəqiq vaxtı yanvarın əvvəlində məlum olacaq".

*Bəs, belə bir qətnamə layihəsinin gündəmə gəlməsi Azərbaycanı Rusiyaya doğru itələyə bilərmi?*

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** öncə bildirdi ki, ABŞ-dan belə bir addımın atılması gözlənilən idi. Çünki illərdir ABŞ-dan edilən çağırışlar yerinə yetirilmirdi. Sonuncu parlament seçkiləri və müxalifətin parlamentə buraxılmaması da vəziyyəti bir qədər tündləşdirdi və ABŞ-dan sanksiyalar məsələsi gündəmə gəldi: "Hələ ki, layihə Konqresdə qəbul edilməyib. Odur ki, problemi çox qısa zamanda həll etmək mümkündür. Biz deməkdən yorulduq ki, hakimiyyət mütləq vətəndaş cəmiyyəti ilə, müxalifətlə dialoqa başlamalıdır, demokratikləşmə xətti götürməlidir, ölkədə milli birlik əldə olunmalıdır. Yaranmış bu mürəkkəb dövrdə ilk növbədə daxildə güclənməyimiz lazımdır, daxildə güclənməyimiz isə bir araya gəlib milli maraqlar məsələsində milli birlik nümayiş etdirməyimizdən keçir. Xarici təzyiqlərə, xarici təcavüzə qarşı ölkənin duruş gətirməsində bir nömrəli faktor budur. Azərbaycan demokratik islahatlara getməli, daxildə milli birlik yaratmalıdır və potensialı olan müttəfiqlər qazanmalıdır. Bu da ABŞ, Avropa Birliyi, Türkiyə və NATO-dur. Azərbaycanın Rusiyaya yaxınlaşması ABŞ-ı narahat etməyə başlayıb. Məlum sanksiya layihəsinin gündəmə gəlməsindən sonra Azərbaycan hakimiyyətinin Rusiyaya daha da yaxınlaşacağı, Avrasiya İqtisadi İttifaqı və Gömrük İttifaqına daxil ola biləcəyi barədə deyilənlərin reallaşacağını düşünmürəm. Hakimiyyətin, xüsusən İlham Əliyevin bu gün Avrasiya İttifaqına və Gömrük İttifaqına daxil olmaq niyyətində olduğunu düşünmürəm. Bundan sonra onun belə hərəkət edəcəyini proqnozlaşdırmıram".

**Politoloq Şahin Cəfərli** bildirdi ki, sanksiya məsələsinin gündəmə gətirilməsi bir fakt kimi Azərbaycan-ABŞ və Azərbaycan-Rusiya münasibətlərində hansısa keyfiyyət dəyişikliyinə səbəb olmayacaq. Dövlətlərarası münasibətlərdə ciddi dəyişiklik yalnız o vaxt baş verə bilər ki, sənəd qanunlaşaraq qüvvəyə minsin: "Bu məsələdə Obama administrasiyasının mövqeyinin həlledici olacağını düşünürəm. Adətən administrasiyanın qarşı çıxdığı layihələr-xüsusən də xarici siyasətə aid məsələlər-Konqresdə nadir hallarda qəbul olunur. Lakin qanun layihəsini hazırlayan Kristofer Smitin Konqresdəki nüfuzu və iqtidardakı demokratların təmsilçisi olması vəziyyətin ciddiliyindən xəbər verir. K.Smit həm də Rusiyaya qarşı "Maqnitski Aktı"nın müəlliflərindən biridir. Azərbaycanla bağlı bu cür təkliflər, təşəbbüslər əvvəllər də irəli sürülüb, amma budəfəki təşəbbüs daha ciddi görünür və layihə çox sərt məzmuna malikdir. Layihənin administrasiya ilə razılaşdırılıb-razılaşdırılmadığı və Ağ Evin, Dövlət Departamentinin bu məsələyə münasibəti barədə fikir yürütmək üçün hələlik əlimizdə məlumat yoxdur. Buna baxmayaraq, hər iki dövlət qurumunun Azərbaycandakı durumdan heç də məmnun olmadığını birmənalı ifadə etmək mümkündür. Layihədə əksini tapmış məqamlar müəyyən mənada onların da mövqeyini ifadə edir, amma Obama administrasiyasının konkret bu layihəyə münasibətinə Azərbaycan hakimiyyətinin yaxın həftələrdə artacağı addımlar ciddi təsir göstərəcək. Məsələn, Azərbaycanda gözlənilən əfv nəticəsində tanınmış siyasi məhbuslar azadlığa buraxılarsa, layihə böyük ehtimalla Konqresin gündəliyinə daxil edilməyəcək. Əks halda isə administrasiya sənədin Konqresin müzakirəsinə çıxarılmasına müqavimət göstərməyə bilər. Hər şey Bakı ilə Vaşinqtonun dialoqundan asılı olacaq".

**Bu məsələnin Azərbaycan-Rusiya münasibətlərinə təsirinə gəldikdə isə Ş.Cəfərlinin fikrincə, sanksiyaların tətbiqi təbii ki, Azərbaycanı Rusiyaya bir az da yaxınlaşdıracaq. Bu yaxınlaşmanın hansı şəkildə gerçəkləşəcəyi və Bakının Rusiyanın xeyrinə strateji seçim edib-etməyəcəyini indidən söyləmək çətindir:** "Hazırda onu demək olar ki, son aylardakı yaxınlaşma prosesinə baxmayaraq, Azərbaycan hakimiyyəti Rusiyanın patronajlığı altındakı qurumlarda və inteqrasiya layihələrində təmsil olunmağa həvəs göstərmir. Avrasiya İqtisadi Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi iqtisadi və hərbi strukturlarda iştirak ən azı yaxın perspektiv üçün Bakının planları sırasında deyil. Üstəlik, nəzərə alsaq ki, həmin təşkilatlarda Ermənistan da var. Əksinə, Avropa İttifaqı ilə iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək niyyəti və cəhdi açıq görünür, bir şərtlə ki, Aİ Azərbaycanın daxili siyasəti ilə əlaqəli olan məsələləri şərt kimi gündəmə gətirməsin. Mən iqtidarın Rusiya ilə həddən artıq yaxınlaşmağın təhlükəli ola biləcəyini anladığını düşünürəm və Moskvanın inteqrasiya layihələrinə daxil olaraq həm ölkənin, həm də bilavasitə öz müstəqilliyini məhdudlaşdıracaq addımlar atmaq istəmədiyinə inanıram. Lakin ABŞ-ın sanksiyalarından sonra ola bilər ki, hakimiyyət başqa yol görməsin".

**Eksperti bildirdi ki, sanksiyaların tətbiqi şübhəsiz ki, hakimiyyət daxilində, ümumən ölkə daxilində Rusiyaya yaxın qüvvələrin mövqelərinin möhkəmlənməsinə səbəb olacaq:** "İndi hər iki yol - həm Qərbin daxili siyasətlə bağlı bəzi tələbləri, həm də Rusiyanın nüfuz dairəsində yer almaq-Azərbaycan hakimiyyəti üçün arzuolunan deyil. Onlar əvvəlki balans siyasətini davam etdirmək istəyirlər, halbuki geosiyasi durum kardinal dəyişikliyə məruz qalıb və qlobal oyunçular konkret mövqe və seçim tələb edir".

**Ş.Cəfərli də S.Əkbərin yuxarıdakı daha bir fikrini təsdiq etdi. O vurğuladı ki, daxildə müəyyən yumşalma, dialoq mühiti olmadan Qərblə münasibətləri inkişaf etdirmək çətin olacaq. İqtidar nə qədər çətin olsa da, islahat xarakterli addımlara gedərək avroatlantik inteqrasiya kursunu davam etdirməlidir.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015









# "Heydər" Məscidində ilk cümə namazı qılındı

## Məsciddə məzhəbindən asılı olmayaraq hər bir müsəlman rahat şəkildə ibadət edə bilir

**Ötən ilin dekabrında açılışı prezident İlham Əliyev tərəfindəın edilən "Heydər" məscidi bir il sonra istifadəyə verildi. Məscid bu ilin dekabrın 14-dən etibarən ibadətə açılıb. Musavat.com xəbər verir ki, bu gün məsciddə ilk cümə namazı qılınıb. Məscidin əsas girişi açılmasa da, namaza gələnlər kiçik zallardan birində toplaşıblar və burada namaz qılıblar. Namaz zamanı məscidin hazırda istifadədə olunan kiçik zalı tamamilə dolub.**

Məsciddən bildirdilər ki, yaxın zamanlarda məscidin əsas zalı da açılacaq. Cümə namazını "İlahiyyat" məscidinin imamı Ceyhun Rüstəmov qıldırıb.

Məscidin minarəsindən hələlik azan səsi yüksəlmir. Bunun səbəbi isə məsciddən deyilənə görə, səsgücləndirici sistemin tam olaraq quraşdırılmaması ilə bağlıdır. Hələ ki azan gündə 5 dəfə olmaqla, məscidin içərisində verilir. Məsciddə məzhəbindən asılı olmayaraq hər bir müsəlman rahat şəkildə ibadət edə bilir.

Cümə xütbəsindən sonra məscidə toplaşanlara səslənən Ceyhun Rüstəmov dedi ki, məsciddə heç bir məzhəb ayrılığından söhbət gedə bilməz: "Biz necə ki, yas mərasimlərinə gedərkən məzhəb ayrılığını unuduruqsa, Allahın evinə, məscidlərə gələrkən də bu ayrı-seçkiliyi unutmalıyıq. Biz unutmamalayıq ki, məzhəbindən asılı olmayaraq, hamımız Məhəmməd Peyğəmbərin ümmətiyik. Gəlin, biz də ümmət olaq, bir olaq, vəhdət olaq. Qurani-Kərimdə Allahu təala buyurur ki, siz şükr edin, mən də artırım. Gəlin, biz də belə gözəl məscidlərdə toplaşa bildiyimiz üçün şükr edək. Dua edək. Bu məscidin tikilməsinə vəsilə olan hər kəsdən Allah razı olsun".

Məsciddə ibadətə gələnlər üçün hər cür şərait var. Qafqazın ən böyük məscidi olan "Heydər" məscidində yaşlıların və əlil arabalarının da hərəkətini asanlaşdırmaq üçün işlər görülüb. Məscidin əsas zalına qalxmaq üçün eskalatorlar və əlillər üçün xüsusi aparatlar quraşdırılıb. Məscidin ətrafında iki böyük avtomobil dayanacağı var.

Qeyd edək ki, məscidə sədr olaraq Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənli təyin olunub. Lakin məscidə hələ ki axund və imam təyin olunmayıb. Məscidə bir neçə axundun və imamın təyin ediləcəyi gözlənilir.

Xatırladaq ki, məscidin tikintisinə 2012-ci ildən başlanılıb. Prezidentin sərəcamı ilə "Heydər" məscidinin tikintisi üçün Bakı Şəhər İcra Hakimiyyətinə 10 milyon manat vəsait ayrılıb.

Məscid 12 min kvadratmetr sahədə tikilib. Məscidin daxili 4200 kvadratmetrdir. Hündürlüyü 95 metr olan 4 minarədən ibarət məscidin 55 metr və 35 metr hündürlüklərində iki günbəzi var.

Məscidin yanında 4 mərtəbəli yeni bina da inşa edilib. Hələ ki istifadəyə verilməyən bina yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulub.

**Onu da əlavə edək ki, məscid və mərasim zalları Qafqaz Müsəlmanları İdarəsinin yox, Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir.**

**❑ İlkin MURADOV**
**Fotolar müəllifindir**



# Üstü içindən keyfiyyətli Yeni il hədiyyələri...

## **Eyyub Hüseynov:** "Hədiyyə paketlərinin içindəki qidaların istehsal tarixi olmalıdır"
## **Fazil Talıblı:** "Alıcılar bu məhsulları alarkən satıcıdan sertifikat tələb etsinlər"

**Yeni ilin yaxınlaşması ilə əlaqədar mağazaların vitrinlərini bir-birindən rəngarəng və göz oxşayan Yeni il hədiyyələri bəzəyir. Görünüşcə bir-birindən fərqli və gözəl hədiyyələri görüb yanından etinasız keçmək olmur. Xüsusən də uşaqlar bu hədiyyələri görər-görməz valideynlərindən almalarını tələb edirlər. Bəs bu hədiyyələrin içindəkilər də üstü kimi keyfiyyətlidirmi?**

Təəssüflər olsun ki, balacaların sevincinə səbəb olan bu kiçik hədiyyələrin içindən bəzən onların sağlamlığı üçün zərərli qidalar çıxır. Hər il bu cür bağlamaların içindən vaxtı keçmiş və ya üzərində yararlılıq müddəti göstərilməyən şirniyyatların çıxdığının şahidi oluruq.

Mağazalara göz gəzdirdikdə 5 və 70 manat arasında hədiyyə bağlamalarına rast gəldik. Təbii ki, hədiyyələrin qiyməti onun ölçüsü və üstünün bəzəyinə görə fərqlənirdi. Satıcılardan hədiyyənin içinə baxıb almaq istədiyimizi dedikdə "içini açmaq olmaz, narahat olmayın içindəkilər təzədir" cavabını aldıq. Digər mağazada isə bu hədiyyələrin içindəki şirniyyatların yararlılıq müddətinin olub-olmadığını soruşduqda satıcıdan "mən o qutunun içinə girməmişəm, bilmirəm, onlar Rusiyadan gətirilib, yəqin ki, təzə olar" cavabını aldıq.

Bu cür hədiyyələrdən birini alan valideynlə satıcının mübahisəsinin şahidi olduq. Alıcı hədiyyə qutusunun üzərinə Rusiya istehsalı yazılsa da, içindəkilərin çoxunun Azərbaycan istehsalı olan şirniyyatlar olduğunu bildirir və aldadıldığını deyirdi. Satıcı isə alıcının hədiyyə bağlamasını açıldığı üçün onu geri qaytarmaq kimi bir şansının olmadığını deyərək yalnızca hədiyyə qutusunun Rusiyadan gətirildiyini deyərək məntiqsiz cavab verir və alıcını inandırmağa çalışırdı.

**Övladı ilə kiçik şirniyyatlar seçən Adilə Quliyeva balaca qızı üçün Şaxta baba hədiyyəsini özünün düzəldəcəyini dedi**: "Keyfiyyətli və təzə olduğuna əmin olduğum xırda şirniyyatlar, şokolad, konfet alıb onu yaxşıca bağlama edəcəyəm. Ən azından biləcəyəm ki, övladımın yediyi keyfiyyətlidir. Hazır hədiyyə paketlərinə güvənim yoxdur. Keçən il almışdıq içindən korlanmış şirniyyat çıxdı. Ona görə də almıram".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, hədiyyə paketlərin içindəki qidaların hər birinin istehsalat tarixi olmalıdır: "Bu fikir düz deyil ki, bahalı hədiyyələr daha keyfiyyətlidir. Əgər hansı



sa qida o hədiyyə paketinin içinə açıq şəkildə qoyulubsa, məsələn konfet, peçenye və sairə bu artıq təhlükəlidir. Hədiyyə paketlərinin içindəki qidaların hər birinin istehsal tarixi olmalıdır. Əgər bu yoxdursa, demək ki, yararlılıq müddəti bitmiş mallardır. Əgər bizə qutunun içindəki keyfiyyətsiz şirniyyatı istehsal edən şirkətlərlə bağlı şikayətlər daxil olarsa, həmin istehsalçılar 500-1500 manat civarında cərimələnə bilər".

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı** dedi ki, alıcılar hədiyyə alarkən satıcıdan onun sertifikatını da tələb etsin: "Bayram ərəfəsində bu problemlər aktuallaşır. Bizim "qaynar xətti"mizə edilən müraciətlərdə də bu ərəfələrdə bunun aktuallığını hiss edirik. Artıq bir neçə müddətdir ki, satışda qablaşdırılmış Yeni il hədiyyələri satılır. Çox yaxşı haldır ki, bu hədiyyələrin problem yaratması ilə bağlı hələ ki heç bir şikayət daxil olmayıb. Amma hədiyyələr necə olmalıdır deyə, narahatlıqlar var. Qanunvericiliyin tələbinə əsasən hər bir məhsul, xüsusən də ərzaq məhsulu birbaşa Nazirlər Kabinetinin qərarına uyğun olaraq məcburi sertifikatlaşdırılmalıdır. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən akreditasiya olunmuş sertifikatlaşdırma orqanları mövcuddur. Məhsul idxalçıları hansısa məhsulu bazara çıxarmazdan əvvəl həmin müvafiq qurumlara müraciət etməli və malların sertifikatlaşmasını həyata keçirməlidir. Çox təəssüflə qeyd edim ki, bəzən sahibkarlar ya qanunvericilikdən xəbərsiz olduqlarından, ya bilərəkdən qanunvericiliyin bu tələblərini pozurlar. Biz sahibkarlar arasında mütəmadi olaraq maarifləndirmə tədbirləri, müvafiq qanunvericiliyin izahı və sairə ilə bağlı tədbirlər həyata keçiririk. Amma bu yetərli deyil. Sahibkarlar bəzən sertifikatlaşdırmadan yayınırlar. Sertifikatlaşdırmadan yayınma halına görə İnzibati Xətalar Məcəlləsində müvafiq sanksiyalar, cəza tədbirləri nəzərdə tutulub. Hədiyyə paketlərinin hər birinin müvafiq sənədləri olmalıdır. Bu hədiyyələr qablaşdırılarkən onun üzərində yazılan məlumatlar da doğru olmalıdır. Bəzən son saxlanma müddəti qablaşdırmanın içində olan ən son saxlama müddəti olan məhsulun tarixi ilə yazılır ki, bu da düzgün deyil. Saxlama müddəti qablaşdırmanın içindəki məhsullardan ən tez xarab olan, onun saxlanma müddəti hansıdırsa, o yazılmalıdır. Alıcılardan bizim tövsiyəmiz və xahişimiz ondan ibarətdir ki, bu məhsulları alarkən diqqətli olsunlar və satıcıdan sertifikat tələb etsinlər. Biz çalışırıq ki, sahibkarlar fəaliyyətlərini elə qursunlar ki, həm bazarlarda haqlı rəqabət mühiti yaransın, həm də istehlakçı hüquqları pozulmasın".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 283 (6311) 19 dekabr 2015

**Ötən ayın 26-da Nardaranda baş verən məlum proseslərin əhatə dairəsi getdikcə genişlənir. Xüsusilə dekabrın 9-da AXCP sədrinin müavini Fuad Qəhrəmanlının həbsindən sonra hakimiyyətin Nardaran hadisələrinin izlərini ölkənin müxalifət camiəsinin daxilində də axtardığı üzə çıxdı.**

# "Milli Şura və AXCP Nardaran hadisələrinə dair istintaqa cəlb oluna bilər"

## Razi Nurullayev Əli Kərimlinin dini kəsimlə əlaqələrinin olması barədə müdhiş faktlar açıqladı



Hakimiyyətin mətbuat orqanı olan "Yeni Azərbaycan" qəzetinin 18 dekabr sayındakı "Radikal müxalifət terrorçuları dəstəklədiyini növbəti dəfə sübuta yetirdi" başlıqlı yazıda Nardaran hadisələri çərçivəsində müxalif düşərgədən həbs olunma, bəzi şəxslərin istintaqa cəlb olunma yaxud çağırılma ehtimallarının anonsu verilib. İqtidar mətbuatı AXCP sədrinin həbs edilən müavininin Nardaran hadisələri ilə bağlı həbs edilən Müsəlman Birliyi Hərəkatının sədri Tale Bağırovla birlikdə din pərdəsi altında cinayətlər törədilməsinə haqq qazandırmaq, hakimiyyəti zorla ələ keçirmə cəhdləri, eləcə konstitusiya quruluşunun zorla ələ keçirilməsinə dair məlumat əldə olunduğunu iddia edib. Məlumatda ölkənin müxalifət düşərgəsinin radikal dindarlarla işbirliyində olduğu da vurğulanıb. Hakimiyyət qəzeti hüquqi qeydiyyatdan keçməyən AXCP sədri Əli Kərimlini bu yollarla ölkədə xaos yaratdığını bildirib.

Heç şübhəsiz ki, hökumət qəzetində yer alan bu iddialar bir çox mətləblərdən xəbər verir, yaxud qarşıda baş verəcəyi ehtimal olunan bir çox hadisələrin anonsudur.

Cəmiyyət arasında AXCP və Milli Şura rəhbərliyinin də Nardaran hadisələri ilə bağlı məsuliyyətə cəlb olunacaqları barədə xəbərlər dolaşır. Səbəb kimi, Tale Bağırzadənin Milli Şuranın üzvü olması, Əli Kərimliyə yaxın olması göstərilir.

Özünü **AXCP-nin varisi elan edən Razi Nurullayev** əks qanadın cinayət məsuliyyətinə cəlb olunma ehtimallarından danışdı: "Fuad Qəhrəmanlının o tərzdə mövqe sərgiləməsi, status yazması düzgün deyildi. Ona görə ki, özünün azadlığına, getdiyi yola kölgə salırdı. Nəticədə o, azadlıqdan məhrum edildi. Ağıllı siyasətçi bilməlidir ki, ölkədə qanlı inqilab baş verərsə, bu artıq bütöv bir cəmiyyətin iflasıdır. Belə inqilablar ilk növbədə, onu yerinə yetirənləri udur. Ölkədə dini zəmində hər hansı bir inqilab olarsa, bu zaman hakimiyyət dəyişikliyi olarsa, əmin olmaq lazımdır ki, ölkəni idarə edən demokratik qüvvələrin içərisindən çıxan şəxs olmayacaq. Belə inqilabların ilk qurbanları indiki siyasətçilər olacaq. Əvvəldə dediyim ki, yenə diqqətə çatdırıram ki, Əli Kərimlinin Nardaran hadisələri ilə bağlı mövqeyi dövlətə xidmət etdi. Buna görə ona "sağ ol" da demək olardı. Hətta o, hakimiyyətin yanında olduğunu da bildirmişdi. Bunların fonunda müavininin bu tərzdə mövqe sərgiləməsi ciddi suallar yaradır. Bu suallar Əli Kərimliyə ünvanlanmalıdır. Nə üçün özünü qorudun, müavinini qurban verdin?".

**Yeni AXCP sədri Milli Şura və Əli Kərimlinin dini kəsimə yaxınlaşdığına səbəb olan amillərdən də söz açdı:** " Bu gün Azərbaycanda siyasət iflasa uğrayıb. Belə bir məqamda biz ortaya çıxdıq. Günü-gündən ölkəmizdə siyasət çökür. Ənənəvi müxalifət olan Milli Şura və Əli Kərimli insanları ətrafında birləşdirə bilmədi. Sıraları seyrəldi. Bunun fonunda dini kəsimdən təşkilatlanma başladı. Yeni dini liderlər ortaya çıxdı. Belə halda onlar siyasətçilərinin diqqətini cəlb etməyə bilməzdilər. Məhz buna görə də, Əli Kərimlinin AXCP-si bu dindarlarla yaxınlaşmağa başladı. Maraqları həmin dini kəsimin sosial bazasından istifadə etmək idi. Orada olmuş birisi kimi deyirəm ki, heç vaxt Əli Kərimli dini irqçiliklə bağlı olan insanlarla bir yerdə olmağa maraq göstərməyib. Gərək haqqı deyəsən. Əksər iclaslarında iştirak edən birisi kimi bunları deyirəm. Başqa ölkələrlə əlaqəsi ola biləcək insanlarla da Əli Kərimli əməkdaşlıq etməyib. Amma həmişə deyilib ki, onların sosial bazasından istifadə etmək olar. Müəyyən müddətə qədər birlikdə tərəfdaş olma ehtimalları də göstərilib. Qüvvələr nisbəti dəyişdikcə, Milli Şura çökdükcə, Əli Kərimlinin fikirlərində dəyişmələr oldu. O, daha çox dini kəsimə yaxınlaşmağa başladı. Onlarla birlikdə ölkədə dəyişiklik etməyin mümkün olduğu qənaətinə gəldi. Bu yaxınlaşma Milli Şurada dini kəsimin təmsil olunmasında daha aydın şəkildə özünü göstərir. Onlar Əli Kərimlinin keçirdiyi qurultayda da təmsil olunublar. Ayrı-ayrılıqda görüşlər də keçiriblər. Bütün bunlar hakimiyyətə əsas verir ki, həm "Yeni Azərbaycan" qəzetində bu cür yazılarla çıxış etsinlər, həm də Fuad Qəhrəmanlını həbs etsinlər".

**R.Nurullayev iqtidar qəzetində dərc olunan məqalənin verdiyi mesajlara da toxundu:** "Nardaran hadisələrini tam olaraq, dinə bağlamaq düzgün deyil. Orada kifayət qədər sosial problemlər də olub. Dini zəmində tutulan insanların da hamısını cinayətkar hesab etmirəm. Ən azından onlara qarşı irəli sürülmüş ittihamlar sübuta yetirilməyincə, cinayətkar demək olmaz. Dövlətə çevrilişinə cəhd etməkdə də günahlandıra bilmərəm. Təbii ki, onların dini müstəvidə sərt çıxışları olub. Bu proseslərdə mən dövlətçiliyin yanındayam. Dinin dövlətə qarışmasının əleyhinəyəm. Onlarla bağlı internetdə kifayət qədər çıxışlar var. Çağırışları açıq şəkildə görünür. Bütün bunlar onu göstərir ki, Milli Şura və AXCP-nin Nardaran hadisələri ilə bağlı aparılan istintaqa cəlb olunmalarına böyük ehtimallar var. Gözləyirəm ki, onlar ciddi şəkildə istintaqa cəlb olunacaqlar. Orada onların da izahatları alınacaq. Çünki, onlar Milli Şura və Əli Kərimlinin AXCP-sinin təşkil etdiyi tədbirlərdə iştirak ediblər. Onlarla gizli və açıq görüşlər keçirilib. Sosial şəbəkələrdə bir-birilərinə açıq şəkildə dəstək veriblər. Bu məsələyə aydınlıq gətirmək üçün istintaqa cəlb olunacaqlar".

❑ **Cavanşir ABBASLI**

# Yevlaxlı iş adamı şərləndiyini deyir

## Mahir Qarayev: "Nəcəb adlı şəxsin adına firmanı Razil Məmmədov açıb və ikimizi də aldadıb; o, mənə böhtan atır"

**Ötən saylarımızdan birində "İş adamının aldatdığı fəhlə: "Özümü yandıracam" sərlövhəli yazı dərc etmişdik. Şəki şəhər sakini Nəcəb Məmməd oğlu Piriyev "Yeni Müsavat"a redaksiyamıza gələrək bildirmişdi ki, iş adamı Mahir Qarayevlə bağlı Bakı şəhər prokuroru Əziz Seyidova şikayət yazıb.**




N.Piriyev həmin şikayət məktubunun surətini də redaksiyamıza təqdim etmişdi. N.Piriyev məktubunda yazırdı ki, Mahir Qarayev adına "Zülkət" MMC adında firma açıb, firmaya xarici işçilər cəlb olunub. Sonradan firmada xarici vətəndaşlar çalışdığına görə Miqrasiya Xidməti adına 35 min manat cərimə yazıb. M.Qarayev isə həmin pulu ödəməkdən yayınır. N.Piriyev Bakı prokurorundan xahiş edirdi ki, məsələ araşdırılsın.

**Yazı dərc olunandan sonra redaksiyamıza müraciət edən Mahir Qarayev N.Piriyevin dediklərinin həqiqət olmadığını söylədi:** "Nəcəbi yönləndirən Razil Məmmədov adlı iş adamıdır. Razilin məqsədi məni şərləməkdir. O mənimlə iş görüb, həmin işə dair sənədləri isə mənə verməkdən boyun qaçırır. 2 il əvvəl də məni aldadıb. Mənə bir sənəd gətirib verib demişdi ki, Türkiyədə bank hesabıdır, həmin hesaba 6 ay sonra 42 min dollar yatırılacaq. 6 ay 2 il oldu, məlum oldu ki, həmin verdiyi sənədin də heç bir əsası yoxdur. Sənədin surətini prokurorluğa təqdim etmişəm".

**M.Qarayev deyir ki, N.Piriyevin şikayəti ilə bağlı Bakı Prokurorluğuna çağırılıb**: "Orada da dedim ki, bunların hamısı böhtandır, xahiş etdim ki, şikayətləri toplayıb Samux məhkəməsinə göndərilsin. Məsələ mülki xarakterlidir, məhkəməlikdir. "Zülkət" şirkətinin açılmasında mənin hər hansı bir formada rolum yoxdur. Razil Məmmədov mənə demişdi ki, Nəcəb çobandır, şirkəti onun adına açmışam ki, lazım olanda istifadə edim. Mənim şirkətin açılmasına görə guya Nəcəbə 250 manat verməyim də yalandır, böhtandır. Həmin şəxsin işlədiyi bağırsaq sexi Razil Məmmədovun qaynatası Musanındır. Miqrasiya Xidməti də xarici işçiləri orada dəri sexində tutub. Lakin Razim Nəcəbin adına olan "Zülkət" MMC-yə yazılan cəriməni bu biçarə kəndlinin adında qalmasına nail olub. İndi isə məni şərləyirlər".

❑ **E.HÜSEYNOV**



# Nardaranda daha 8 nəfər saxlanıldı

## Qəsəbədə əməliyyatlar davam edir

**Dekabrın 18-də Nardaranda günorta saatlarında keçirilən əməliyyatlar zamanı daha 3 nəfər saxlanılıb. 5 nəfər isə səhər saatlarında keçirilən əməliyyatlar zamanı saxlanılmışdı.**

Bu barədə məlumatı musavat.com-a **Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov** verib.

Onun sözlərinə görə, kənddə evlərdə və həyətyani sahələrdə hüquq-mühafizə orqanları tərəfindən axtarışlar davam edir. Axtarışda polis əməkdaşları və xüsusi təyinatlılar iştirak edir.

"Əkin yerlərini, evləri axrarırlar. Xüsusi itlər də axtarışda istifadə olunur. Bildiyimiz qədəri ilə silah və narkotik axtarılır. Bu gün səhər 5 nəfəri, günorta isə 3 nəfəri axtarışlardan sonra apardılar. Amma evlərdən heç nə tapılmayıb. Axtarışlar zamanı çəkiliş də olub. Saxlanılanlardan xəbər yoxdur" - deyə N.Kərimov bildirib.

**Xatırladaq ki, dekabrın 1-dən Nardaran Daxili Qoşunların və polisin nəzarətindədir. Nardaran sakinlərindən başqa heç kim kəndə buraxılmır. Kənddə keçirilən əməliyyatlar zamanı xeyli sayda saxlanılan var. Lakin bu barədə heç bir rəsmi açıqlama verilmir.**

❑ **İlkin MURADOV**

**Milli Məclisin sabiq sədri, hazırda ABŞ-da mühacirətdə yaşayan Rəsul Quliyev ölkəyə qayıtmaq istədiyini, lakin ona maneələr yaradıldığını bildirib. Bu barədə o, modern-az saytına məlumat verib. R.Quliyev bildirib ki, müəyyən şərtlərlə Azərbaycana gəlmək üçün heç vaxt kiməsə müraciət etməz: "Heç vaxt etmədiyim "cinayət" işinə görə əfv olunmağımı xahiş etmərəm. Kiminsə diktəsi ilə müəyyən addımlar atmağa razılıq vermək şərti ilə yaşamaqdansa, ölməyə üstünlük verərəm.**

# Rəsul Quliyev Azərbaycana qayıtmaq istəyir...

## İqbal Ağazadə: "Rəsul Quliyev kifayət qədər nüfuzu olan bir şəxsdir"
## Müzəffər Baxış: "Rəsul Quliyev Azərbaycana gəlsə..."


Rəsul Quliyev

Mənə qarşı açılmış 'cinayət' işinin əsas müddəaları ilə Azərbaycanı tərk etməzdən bir gün öncə indi sizlərin yaxşı tanıdığınız şəxslərin iştirakı ilə tanış edilmişdim. Yəni "özünü yaxşı aparmasan, bu cinayət işi açılacaq" xəbərdarlığını almışdım. "Burada yazılanların hamısı yalandır, bunu necə edəcəksiniz" sualıma "sən ağıllı adamsan, bunu necə etməyin çox asan olduğunu bilirsən" cavabı verilmişdi".

Milli Məclisin keçmiş sədri daim mərhum prezident Heydər Əliyevi müdafiə etdiyini də qeyd edib. R.Quliyev Azərbaycana gəlişinin hakimiyyət üçün heç vaxt təhlükə yaratmayacağını bildirib. O, Azərbaycanda yaşayıb-yaşamamağından asılı olmayaraq, hökumətin və müxalifətin hansı addımlarının doğru, hansıların səhv olduğunu analiz edən yazılarını davam etdirəcəyini də vurğulayıb.

Məlumata görə, R.Quliyevin üzərindəki cinayət işi hələ də qalır. Bu amil eks-spikerin ölkəyə gəlişini əngəlləyən başlıca səbəbdir.

Qeyd edək ki, 2005-ci ilin oktyabrında da parlamentin sabiq sədri ölkəyə qayıtmağa cəhd etmiş, lakin alınmamışdı. Hiss olunur ki, eks-spiker tam arxayın olduqdan sonra Azərbaycana qayıtmaq istəyir. Bu, onun mesajlarında açıq şəkildə sezilir. Çoxları hesab edir ki, R.Quliyevin ölkəyə qayıdışı siyasətdə də ciddi canlanmaya səbəb ola bilər. Bunu xaricdə olmasına baxmayaraq, daim siyasətdə olan çəkisi ilə əsaslandırırlar.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** deyilən fikirlərin əleyhinədir. O hesab edir ki, Azərbaycan siyasətində olan şəxslər R.Quliyevdən bacarıqsız deyillər: "Azərbaycan siyasətində olanlar Rəsul Quliyevdən o qədər də bacarıqsız deyil ki, o, gələn kimi dəyişiklik olsun. Amma Rəsul Quliyev kifayət qədər nüfuzu olan bir şəxsdir. O gəlsə, ümumi nüfuzun üzərinə nəsə qoya bilər. Nəticədə nəsə arta bilər. Amma "o gəlsin, hər şey düzələcək" kimi sözləri deyən şəxslərin siyasətdən anlayışları yoxdur".

Sabiq spikerin ölkəyə qayıdarsa, həbs oluna bilərmi sualı da hər kəsi düşündürür.

**Hüquqşünas Müzəffər Baxış** Azərbaycan vətəndaşının ölkəyə qayıdışına qanunla heç bir maneə olmadığını bildirdi: "Konstitusiyanın 28-ci maddəsinin 4-cü hissəsinə görə, Azərbaycan Respublikasının vətəndaşının ölkəyə gəlişinə heç bir maneə yaradıla bilməz. Yəni qanun səviyyəsində Azərbaycan vətəndaşının ölkəyə gəlməsinə qadağa qoyula bilməz. Bu nöqteyi-nəzərdən Rəsul Quliyev düz deyir ki, bir neçə dəfə Azərbaycana gəlməyə cəhd edib, amma silahla onun qarşısını almağa çalışıblar. Hüquq mühafizə orqanları onun barəsində Cinayət Məcəlləsinin 179.3.2 maddəsi ilə cinayət işi başlayıblar. Düşünmürəm ki, o, hansısa cinayəti törədib. Hesab edirəm ki, onun barəsində cinayət işi qondarmadır. Əslində, Rəsul Quliyevin ölkəyə gəlişinin qarşısını almaq üçün həmin cinayət işini başlayıblar. Amma faktiki onun barəsində cinayət işi var. Rəsul Quliyev hüquq-mühafizə orqanları tərəfindən istintaqa cəlb edilib. Guya o, istintaqdan gizləndiyinə görə, həmin cinayət işinin icraatı Azərbaycan Cinayət Prosessual Məcəlləsinin 52-ci maddəsi ilə dayandırılıb. Belə olan halda, cinayət işinin başlamasından 20 il keçsə, Cinayət Məcəlləsinin 75-ci maddəsinin tələblərinə görə, əgər təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxs istintaq və ya məhkəmədən gizlənirsə, onda cinayət məsuliyyətinə cəlbetmə müddəti kəsilir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 75-ci maddəsi üzrə, Rəsul Quliyevə qarşı irəli sürülmüş Cinayət Məcəlləsinin 179.3.2 maddəsinə görə, verilən ittiham üzrə cəzanın yuxarı həddi kimi 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Cinayət Məcəlləsinin 15.4-cü maddəsi ilə ağır cinayətlər kateqoriyasına aiddir. Həmin maddə üzrə 7 ildən 12 ilə qədər nəzərdə tutulan həbs cəzaları ağır cinayətlər kateqoriyasına aiddir. 75-ci maddəyə görə, ağır cinayətlər kateqoriyasına cəlb edilmə müddəti 12 ildir. Əgər Rəsul Quliyevin törətdiyi cinayət əməlindən 12 il keçibsə, onu cinayət məsuliyyətinə cəlb etmək olmaz. Amma Rəsul Quliyev təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edildikdən sonra, o, məhkəmədən gizləndiyinə görə, Cinayət Məcəlləsinin 75-ci maddəsi ilə onun cinayət məsuliyyətinə cəlb olunma müddəti kəsilir. Yəni hansı müddətdən ki, o gizlənir, həmin müddət kəsilir. Lori dildə desək dayanır. Bu nöqteyi-nəzərdən əgər Rəsul Quliyev Azərbaycana gəlsə, onun barəsində Cinayət Məcəlləsinin 179.3.2 maddəsi ilə qaldırılan cinayət işinə xitam verilməyibsə, o, Azərbaycanın hüquq mühafizə orqanları tərəfindən qondarma əsaslarla cinayət məsuliyyətinə cəlb edilə bilər".

Azərbaycan Respublikasının Baş Prokurorluğunun R.Quliyevin üzərindəki cinayət işi ilə bağlı mövqeyini öyrənməyə çalışdıq. Amma mümkün olmadı. Zənglərimizə cavab verən tapılmadı.

**Qeyd edək ki, Rəsul Quliyev 1996-cı ildən ABŞ-da yaşayır. O, 1993-96-cı illərdə Azərbaycan Parlamentinin sədri olub.**

❑ Cavanşir ABBASLI

# XKX şefi haqda məlumatlar məxfi saxlanılmalıdır?

## Sabiq MTN əməkdaşları izahat verdi

**Prezident İlham Əliyevin fərmanı ilə Milli Təhlükəsizlik Nazirliyinin əsasında Xarici Kəşfiyyat Xidməti (XKX) yaradılıb. XKX-nın rəisi Orxan Sultanov təyin olub. O. Sultanov geniş ictimaiyyətə tanış sima deyil. Mətbuat da hətta onun fotosunu belə tapmağa çətinlik çəkir.**


Ərəstun Oruclu

XKX-nın rəisi postuna bu cür "gizli şəxs"in təyin edilməsi nə ilə bağlıdır? Dünya təcrübəsində kəşfiyyat şeflərindən ictimaiyyətə hansı çərçivədə məlumat verilir?

Məsələ ilə bağlı musavat.com-a danışan **politoloq Ərəstun Oruclu** bildirib ki, ölkələrdən asılı olaraq kəşfiyyat rəisləri haqqında ictimaiyyətə məlumatların verilməsi də müxtəlifdir:

"Elə ölkələr var ki, orada bu kimi məlumatlar açıqdır. Şəxs haqqında hərtərəfli rəsmi məlumatlar verilir. Çünki bir sıra hallarda, demokratik ölkələri götürsək orada kəşfiyyata rəhbərlik edənlər siyasətçilər olurlar. Ümumiyyətlə, bu şəxslər siyasətçilər, hərbiçilər ola bilərlər. Yəni istənilən halda prezidentin komandasından olurlar. Misal üçün, ABŞ-da praktika belədir ki, orada kəşfiyyat işlərinə baxan qurumlardan ən başlıcası Mərkəzi Kəşfiyyat İdarəsidir. Yeni prezident ilk təyinatlarından biri kimi məhz bu idarənin direktorunu təyin edir. O isə siyasətçi, hərbiçi də ola bilər. Bu baxır onun komanda mənsubiyyətinə".

**Ekspert bildirib ki, xarici kəşfiyyat, həm də xarici siyasətin tərkib hissəsidir:** "Əgər söhbət peşəkardan, kəşfiyyatçıdan gedirsə, hansı ki, onun keçmişdə müəyyən kəşfiyyat fəaliyyəti olub. Təbii ki, bu cür adamlar haqqında ictimaiyyətdə məlumat az olur. Bəzən isə heç olmur. Bu normal bir haldır. Ancaq təyin olunduqdan sonra artıq onun üzərindən məxfilik müəyyən qədər götürülür. Ən azı şəxsiyyət olaraq kimliyi barəsində məlumatlar verilir. Lakin o, əvvəllər kəşfiyyatçı olaraq müəyyən fəaliyyətlə məşğul olubsa, həmin məlumatlar açıqlanmır. Məlumatlara görə, XKX-ya rəis təyin olunan Orxan Sultanov əvvəllər Xarici İşlər Nazirliyində işləyib. Xarici İşlər Nazirliyində işləyən şəxslər arasında xüsusi xidmət orqanlarının da əməkdaşları olur. Yəni ola bilər ki, eyni ilə həmin funksiyada çalışıb. Belə bir funksiya isə normalda məxfi sayılır. Ona görə də düşünmürəm ki, bundan artıq məlumat əldə etmək mümkün olsun".

**Mövzu ilə bağlı təhlükəsizlik sahəsi üzrə ekspert İlham İsmayıl da musavat.com-a danışıb. O bildirib ki, hər zaman kəşfiyyatçılar bir neçə "pərdə"nin arxasında olurlar:** "İndiyə qədər Azərbaycanda xarici kəşfiyyat müstəqil olmayıb. Ümumiyyətlə, kəşfiyyatda işləyənlər məşhur olmurlar. Orada məxfilik daha çox qorunur. Xaricdə də işləyən zaman da onlar, hər hansı bir məxfilik altında çalışırlar. Birbaşa gəlib demirlər ki, biz kəşfiyyatçıyıq. Ona görə də onların tanınmaması təbii qarşılanmalıdır. İndi sadəcə olaraq, müstəqil qurum yarandığı üçün rəsmən elan olunur ki, bu şəxs kimdir. Hazırda yeni rəis, artıq özü birbaşa gedib kəşfiyyatçılıq etməsə də, yaxşı kəşfiyyatçılar hazırlayacaq. Belə də olmalıdır. Bundan sonra təbii ki, eyni zamanda onun birinci şəxs kimi adı tez-tez hallanacaq. Çünki qurum müstəqildir".

❑ Əli RAİS, musavat.com

# "125-lər" yenidən təşkilatlanır

## Tamilla Qulami: "Yeni sədr və müavinlər seçəcəyik"

**2014-cü ildə ötən parlament seçkilərində iştirak etmək məqsədi ilə "125-lər" Siyasi Klubu təsis edilmişdi. Klub üzvləri seçkiyə qatılsalar da, Milli Məclisdə təmsilçilik hüququ qazana bilmədilər. Bəs bundan sonra "125-lər" Siyasi Klubunun taleyi necə olacaq?**


Tamilla Qulami

Məsələ ilə bağlı musavat.com-a klubun sədr **müavini Tamilla Qulami** danışıb. O bildirib ki, "125"lərin gələcəyi ilə bağlı toplantı keçiriləcək: "Nizamnaməyə görə hər il Məclis keçirilərək, başqan seçilir. Bu davamlı olacaq. İlhamiyyə xanım bizdən ayrıldı, o artıq bundan sonra siyasi deyil, ictimai fəaliyyətlə məşğul olmağı nəzərdə tutub. Başqanın yaxud da üzvlərin getməsi ilə bilirsiz ki, bir təşkilat, hərəkat dağılası deyil. Ona görə də inşallah iclasımız keçiriləcək. Növbəti 5 il üçün fəaliyyətimiz davam edəcək".

**T.Qulami bildirib ki, artıq kluba yeni üzvlər də müraciət edirlər:** "Yeni üzvlərimiz də var. Millət vəkilliyinə iddialı olan gənclər ətrafımızda yığılmaq üzrədirlər. Buna görə də bəlli bir zamanda Məclis keçirilib sədr və müavinləri seçiləcək".

**Məsələ ilə bağlı musavat.com-a klubun sədri olmuş İlhamiyyə Rza da danışıb. O bildirib ki, gələcəkdə yenidən hər hansı bir ideya ətrafında birlikdə ola bilərlər:**

"Klubdan gedənlər ictimai baxımdan fəal olan insanlardır. Düşünürəm ki, kluba gəlməzdən öncə də, indi də onlar cəmiyyətin həyatında fəal iştirak edəcəklər. Həmçinin bunu özüm haqqında da deyə bilərəm. Əlbəttə, gələcəkdə hər hansı bir ideya və məqsədlər ətrafında birgəliyimiz ola bilər. Yəni bu, istisna deyil. Söhbət əlbəttə ki, partiya mənsubiyyəti olmayan, bitərəf olan şəxslərdən gedir. Partiyalılar zatən klubda qaldılar və siyasi fəaliyyətlərini davam etdirmək fikrindədirlər. Hamıya, gedənlərə də qalanlara da uğurlar arzu edirəm".

❑ Əli RAİS

## Bakıda sərxoş sürücü ata ilə azyaşlı oğlunu vurub öldürdü

**Ötən gecə paytaxtın Suraxanı rayonunda iki nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib. APA-nın məlumatına görə, hadisə Yeni Günəşli qəsəbəsinin V massivində qeydə alınıb. Yüksək sürətlə hərəkətdə olan "Niva" markalı avtomobil yolu keçmək istəyən ata ilə oğlunu vurub. Zərbənin təsirindən azyaşlı hərəkətdə olan avtobusa dəyib. Qəza nəticəsində hər iki piyada İbrahim Xəlilov və azyaşlı oğlu hadisə yerindəcə dünyasını dəyişib. Hadisə şahidlərinin sözlərinə görə, qəzaya "Niva"nın yüksək sürətlə hərəkət etməsi və yolun qaranlıq olması səbəb olub.**

Hadisə yerinə polis əməkdaşları gəliblər. Yoxlama zamanı "Niva"nın sürücüsünün sərxoş olması məlum olub. O, polis tərəfindən saxlanılıb.

Faktla əlaqədar Suraxanı rayon Polis İdarəsində cinayət işi başlanıb.

## Bakıda kredit təşkilatının işçisi yoxa çıxıb

**Bakıda fəaliyyət göstərən bank olmayan kredit təşkilatlarından birinin əməkdaşı itkin düşüb. Lent.az-ın məlumatına görə, Əlibəyli Pərviz Natiq oğlu dünən saat 07 radələrində evdən çıxıb və bir daha geri qayıtmayıb. Dünən işə də getməyən gənclə əlaqə yaratmaq da mümkün olmayıb.**

Hazırda polis P.Əlibəylinin tapılması istiqamətində iş aparır.

## Tikinti şirkətinin rəhbəri barəsində cinayət işi başlandı

**Azərbaycanda tikinti kooperativinin rəhbəri barəsində cinayət işi başlanıb. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakininin "198" saylı Mənzil Tikinti Kooperativinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Araşdırmalar zamanı kooperativin direktoru Rəşad Camalovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özü və ya üçüncü şəxslər üçün qanunsuz olaraq maddi və sair nemətlər əldə etmək məqsədilə Bakı şəhəri, Yasamal rayonu, D.Bünyadzadə küçəsi 55 saylı ünvanda tikilmiş çoxmərtəbəli yaşayış binasında vətəndaşa məxsus mənzilin satışının rəsmiləşdirilməsi üçün ondan kooperativin işçisi Tural İsayev vasitəsi ilə 2 min manat məbləğində pulu rüşvət kimi almasında şübhələr üçün əsaslar olduğundan barəsində Cinayət Məcəlləsinin 308.1 *(vəzifə səlahiyyətlərindən sui-istifadə)* və 311.1-ci *(rüşvət alma)* maddələri ilə cinayət işi başlanıb.

**Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## "Bəzi işbazlar süni yumurta qıtlığı yaratmaqla ajiotajla məşğuldur"

**"Azərbaycanda yumurta qıtlığı ilə bağlı yayılan xəbərlər həqiqəti əks etdirmir". Bunu "APA-Economics"ə Azərbaycan Quşçuluq Cəmiyyətinin sədri Aydın Vəliyev deyib.**

Azərbaycanda il ərzində yumurtaya olan tələbatın 1,3 milyard ədəd olduğunu deyən A.Vəliyev bildirib ki, 3-4 ildir ki, yumurtaya olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir: "Təkcə bu ilin 11 ayında 1 milyard 500 milyon ədəd yumurta istehsal olunub. Xəbər yayılır ki, yumurta qıtlığı var. Harada? Bütün satış nöqtələri səhər-axşam yumurta ilə təmin olunur. Yumurta yaxşı satılır deyə, kimsə daha çox pul qazanmaq üçün yumurtanı gizlədir ki, ilin sonuna yaxın daha baha qiymətə satsın. Regionlarımız da yumurta ilə əvvəlki normadan iki dəfə artıq təmin olunur. Əvvəllər hətta yalvarırdıq heç yumurtanı götürmürdülər".

**Cəmiyyət sədri bildirir ki, yerlərdə, xüsusilə Bakıda bəzi işbazlar ajiotaj yaratmaqla məşğuldur.** "Gündə mənə şikayət xarakterli zənglər gəlir və insanlar deyir ki, mağazada yumurtanın qiyməti 15 qəpikdir. Satış nöqtələrinə yumurta 11 qəpikdən verilir və biz tövsiyyə edirik ki, 13 qəpiyə satın. Mağazada 15 qəpiyə satılırsa, biz nə edək?" - deyə A. Vəliyev sual edir.

**O bildirib ki, quşçuluq təsərrüfatlarında virusun yayılması ilə bağlı xəbərlər də yalandır:** "Bizim vaksinlər bahalıdır. Biz Rusiyadan ucuz vaksin, yəni su almırıq. Ucuz vaksinləri kənddə həyətyanı sahələrdə istifadə edirlər. Ona görə də orada quşlar tələf olur. Bizim təsərrüfatlarda heç bir virus yayılmayıb. Biz quşları ətraf mühitdən təcrid etmişik. Ona görə ki, xəstəlik düşməsin. Biz Hollandiyadan, Almaniyadan bahalı vaksinlər alırıq. Bu sahibkarın puludur. Ona görə də buna ciddi riayət olunur. Buna görə də bu gün heç bir xəstəlik yoxdur".

## Tərtərdə silahlı insident: həmkəndlisini güllələdi

**Tərtər rayonunda silahlı insident baş verib. Lent.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, dekabrın 17-də Tərtər rayonunun İsmayılbəyli kəndində Ağdam rayon sakini Nabil Aslanov münaqişə zəminində tüfəngdən açdığı atəşlə həmkəndlisi Anar Aslanova xəsarət yetirib.**

N.Aslanov könüllü olaraq Tərtər RPŞ-yə gəlib və hadisəni törədərkən istifadə etdiyi müvafiq sənədləri olmayan "TOZ-16" markalı tüfəngi də təhvil verib.

Faktla əlaqədar cinayət işi başlanıb. Araşdırmalar aparılır.

## Tələbə qız 9-cu mərtəbədən yıxıldı

**Bakıda dəhşətli hadisə baş verib. Lent.az-ın məlumatına görə, 1998-ci il təvəllüdlü Əhmədova Esmira İlqar qızı Səhiyyə Nazirliyinin Yasamal rayonu Zərdabi küçəsində yerləşən İctimai Səhiyyə və İslahatlar Mərkəzinin 9-cu mərtəbəsindən yük liftinin şaxtasına yıxılıb. 17 yaşlı qız liftin 1-ci mərtəbəsində dayanmış vəziyyətdə olan liftin damına düşüb.**

O, təcili olaraq ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzə çatdırılıb. İlkin müayinə nəticəsində E.Əhmədovanın çoxsaylı sınıq xəsarətləri aldığı və vəziyyətinin çox ağır olduğu məlum olub. Lent.az-ın əldə etdiyi digər məlumata görə, 9-cu mərtəbədən yıxılan 17 yaşlı E.Əhmədova 1 saylı Tibb Texnikumunun tələbəsi olub. Hazırda faktla bağlı araşdırmalar aparılır.

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Polis zabitinin atası beynəlxalq axtarışa verilib

**Azərbaycan hüquq-mühafizə orqanları dələduzluqda təqsirləndirilən şəxs barəsində beynəlxalq axtarış elan edib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib.**

Məlumatda qeyd olunur ki, 67 yaşlı Niftəli Fətəliyev Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilir. O, ölkədə olmadığı üçün barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib.

APA-nın əldə etdiyi məlumata görə, N. Fətəliyev Quba rayon sakinidir. Onun oğlu, Şahverdi Fətəliyev isə hazırda Quba Rayon Polis Şöbəsində sahə rəisi vəzifəsində çalışır. Ş.Fətəliyev polis kapitanıdır.

**Ş.Fətəliyev APA-nın sorğusuna cavabında atasının axtarışa verilməsindən məlumatsız olduğunu bildirib:** "Atam hazırda Rusiyadadır. Səhhəti ilə əlaqədar müalicəyə gedib. Onun axtarışa verilməsi ilə bağlı məlumatımız yoxdur".



## «Azercell» "İlin Mobil Operatoru" seçildi




**Ölkənin lider mobil operatoru «Azercell Telekom»un nailiyyətləri sırasına daha bir uğur əlavə olunub. Şirkət "Consulting&Business" jurnalının təsis etdiyi İlin Şirkəti 2015 mükafatının "İlin Mobil Operatoru" nominasiyası üzrə qalib seçilib. Mobil rabitə sahəsində ən innovativ meyyləri ölkədə təqdim edən «Azercell» şirkəti telekommunikasiya xidmətlərinin inkişafına verdiyi töhfəyə, həyata keçirdiyi uğurlu layihələrə və yeniklərə görə mükafatlandırılıb. «Azercell Telekom» MMC-nin yeni təyin olunmuş prezidenti Vahid Mürsəliyev mükafatı qəbul edərək "Consulting&Business" jurnalının idarə heyətinə şirkəti bu ada layiq gördüyünə görə, ilk növbədə isə «Azercell»i öz mobil operatoru kimi seçən 4.5 milyon abunəçiyə minnətdarlığını bildirib. Vahid Mürsəliyev öz çıxışında «Azercell»in 2015-ci ildə istər mobil rabitə, istərsə də sosial fəaliyyət istiqamətində bir sıra mühüm layihələr həyata keçirdiyini vurğulayıb. «Azercell» şirkəti yarandığı gündən daim müştərilərinə ən yüksək xidməti təqdim etməyə və Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olmağa çalışıb. Bütün bu illər ərzində xidmətlərimizin və şəbəkəmizin mükəmməlliyi üzərində fokuslanaraq, texnoloji innovasiyalar sahəsində də nümunəvi şirkət olmağı vacib saymışıq"- deyə şirkət prezidenti bildirib.**

**Qeyd edək ki, İlin Şirkəti Milli mükafatı "Consulting&Business" jurnalı tərəfindən 2006-cı ildə təsis olunub və Azərbaycanda biznes və iqtisadiyyat sahəsində ən nüfuzlu mükafatlardan biri sayılır. "İlin Şirkəti" milli iqtisadiyyatın müxtəlif sahələrində əhəmiyyətli nəticələr əldə etmiş təşkilatlara təqdim olunur.**

**Azərbaycanda 2-ci qıza görə 10 min manat verilməsi məsələsinə nazirlikdən reaksiya gəlib. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı Azərbaycanda 2-ci qız övladının doğulmasına görə verilməsi nəzərdə tutulan 10 min manatla bağlı əhali arasında yaranan suallara aydınlıq gətirərkən mükafatlandırma sisteminin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində hazırlandığını və 2015-2020-ci illər üçün nəzərdə tutulan demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsinə dair Dövlət Proqramına salındığını deyib.**

# "Qız qızıla dönüb" söhbətinin pərdəarxası

## Azərbaycan ailədəki qız uşaqlarına görə müavinət məsələsini təxirə saldı, amma...

### "10 min manat veriləcək" ifadəsi heç kimin dilindən çıxmayıb"

Milli.Az xəbər verir ki, **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev** isə modern.az saytının sorğusuna cavab olaraq bildirib ki, həvəsləndirmənin hansı formada olacağını qəti demək tezdir: "Heç bir dövlət rəsmisinin dilindən "10 min manat veriləcək" ifadəsi çıxmayıb. Bu rəqəmi mətbuatın haradan tapdığı bilinmir. Sadəcə, bildirilib ki, müxtəlif variantlar var, onlardan biri də həvəsləndirmədir. Bunun hansı formada olacağını demək tezdir".

**Nazirliyin sözçüsü qeyd edib ki, doğulanlar arasında cins nisbətinin pozulmasının qarşısının alınması məqsədi ilə hazırlanacaq fəaliyyət planında abort siyasətinə yenidən baxılması və bir sıra başqa məsələlər nəzərdə tutulub**: "Proqramda hamiləliyin sonrakı dövrlərində ana və ya uşağın sağlamlığı üçün təhlükə olmadığı hallarda abortlara məhdudiyyətlərin qoyulması, həkimlərin məsuliyyətinin artırılması, bu sahədə qanunvericiliyin sərtləşdirilməsi, kontraseptiv vasitələrdən istifadə səviyyəsinin artırılması, qız uşaqları olan ailələrlə bağlı əlavə sosial proqramların hazırlanması və digər tədbirlərin nəzərdə tutulmasının zəruriliyi bildirilir".

### Fevral ayında da bu məsələni Vüqar Bayramov gündəmə gətirdi

Amma maraqlı məqam odur ki, bu məsələ tez-tez gündəmə gəlir. Son olaraq bu ilin fevralında mediada ciddi müzakirə olundu. Həmin vaxt Azərbaycanda qız valideynlərinin mükafatlandırılması üçün yeni sistemin tətbiq olunacağını İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) sədri Vüqar Bayramov açıqlamışdı. İqtisadçı bildirmişdi ki, ailədə ikinci qız dünyaya gəldikdə onun adına bankda 10 min manatlıq hesab açılacaq.

"Mükafatlandırma sistemi artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış və 2015-2020-ci illər üçün nəzərdə tutulmuş Demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramına daxil edilib. Dövlət Proqramının layihəsi yaxın günlərdə Nazirlər Kabinetinə təqdim ediləcək, müvafiq olaraq yaxın aylarda qüvvəyə minəcək" deyən iqtisadçı əminlik ifadə edib, amma dəqiq tarixi açıqlamamışdı. Az keçmədən bu məsələ rəsmi səviyyədə təkzib olunsa da.

### Azərbaycan və Ermənistanda... qız uşaqları doğulmadan məhv edilir

Xəbər yayılandan sonra daha çox müzakirə olunan məsələ isə bu anonsun o qədər də inandırıcı olmaması, həyata keçirilməyəcəyi ilə bağlıdır. Halbuki Azərbaycan ailələrində qız uşaqlarının sayının azalması problem kimi özünü göstərməyə başlayıb. Orta məktəblərdə müəllimlər oğlanlarla eyni partada oturtmağa qız şagirdləri tapmırlar.

Bu yaxınlarda açıqlanmış bir araşdırma üzə çıxarıb ki, Azərbaycanda qızların 10%-i dünyaya göz açmadan məhv edilir. Amerikalı tədqiqatçıların araşdırmasından o da bəlli olub ki, Azərbaycan və Ermənistanda cinsə görə selektiv abort geniş yayılıb. Tədqiqat 3 postsovet ölkəsində - Ermənistan, Azərbaycan və Gürcüstanda 2005-2010-cu illərdə 100 qıza azı 116 oğlan düşdüyünü üzə çıxarıb. Bu rəqəmlər Çin və Hindistanla müqayisə olunur. Bənzər fenomenə başqa postsovet ölkələrində, məsələn, Qazaxıstan, Moldova və Ukraynada rast gəlinməyib.

Bu arada Milli Məclisə ultrasəs müayinəsi zamanı dölün cinsini açıqlamağın həkimlərə qadağan edilməsi ilə bağlı təklif verilib. Lakin ekspertlər hesab edir ki, bu qadağa tətbiq edilsə də, ona riayət etmək, mexanizmi tapmaq çətin olacaq: "Bu halda da ultrasəs müayinəsi ilə bağlı qara bazar yaranacaq. İnsanlar hansısa gizli yollarla bu üsuldan yararlanmağa çalışacaq. Nəticədə vəziyyət daha da pisləşəcək. Ona görə də qadağa tətbiq etmək yerinə təfəkkürlərdəki qüsuru aradan qaldırmaq lazımdır".



"Science" jurnalının araşdırmasına görə, dünyada təbii halda hər 100 qıza qarşılıq 105 oğlan doğulur. Amma bəzi inkişaf etməkdə olan Asiya ölkələrində bu rəqəm süni şəkildə oğlanların xeyrinə dəyişdirilir. Məsələn, Çində hər 100 qıza 120-150, Gürcüstanda 118, Ermənistanda 120, Azərbaycanda isə 115 oğlan dünyaya gəlir.

### Qız uşaqlarının sevilməməsinin ilginc səbəbi

Sosioloqlar isə düşünür ki, adətən qız uşaqlarına olan istəksizlik inkişaf etməmiş, partriarxal cəmiyyətlərdə özünü göstərir. Buna səbəb isə ailələrin qızları zəif hesab etməsidir. Belə ki, bu sayaq cəmiyyətlərdə qadınların hüquqları daha çox pozulur. O səbəbdən heç bir ana öz yaşadıqlarını övladlarının təkrarən yaşamasını istəmir. Bu isə cəmiyyətin özünün zəifliyindən irəli gəlir. Cəmiyyət zəif olduğundan zəif hesab etdiyi qadını qəbul etmək istəmir, zəifdən utanır. Halbuki müasir cəmiyyətdə qadının rolu dəyişib, indi fiziki güc mühüm deyil. Bu cür halların qarşısını almaq lazımdır. Bu işlə hökumət də ciddi məşğul olmalıdır, əgər hökumət etmirsə, onda qeyri-hökumət təşkilatları, ziyalılar, media etməlidir.

Ginekoloqlar isə hesab edir ki, gələcək körpənin cinsini təyin etmək üçün istifadə olunan metodlardan ən dəqiqi implantasiyaönü perinatal diaqnostikadır - başqa sözlə, süni mayalandırma vasitəsilə embrionun cinsinin təyini. Bu zaman lazer sitometrlə lazımı xromosom dəstinin seçimi aparılır. Müvafiq xromosom tərkibli spermatozoidlə mayalandırılmış yumurta hüceyrəsi qadının uşaqlığına implantasiya edilir və bununla da süni mayalanma başa çatır. Bu üsulun dəqiqliyi 90% təşkil edir. Bu üsuldan ən zəruri hallarda, məsələn, ailədə irsi xəstəlik *(hemofiliya, talassemiya və s.)* olduğu zaman istifadə olunur. Belə ki, misal üçün, hemofiliya genlərinin daşıyıcısı qadın olduğu halda bu xəstəliyə yalnız oğlan uşaqları tutulur.

### Çin qadağanı dayandırdı, dünya ölkələri güzəşt tətbiq edir

Bəs bu problemin əlində ancaq Azərbaycan əsir qalıb? Dünya ölkələrində də bu problemi yoluna qoymağın qəribə üsulları var.

Başlayaq **Çin**dən. Çin doğuma nəzarəti təmin etmək məqsədi ilə 35 il boyunca "Bir ailə - bir uşaq" siyasətini həyata keçirib. Amma bu siyasətin dayandırılması barədə qərar Çin Xalq Respublikası (ÇXR) Kommunist Partiyası Mərkəzi Komitəsinin oktyabrın 29-da başa çatan plenar iclasında qəbul olunub. Bu qərarla bütün ailələrə ikinci uşağı dünyaya gətirməyə icazə verəcək. Bu, ölkədə demoqrafik inkişafı təmin etmək məqsədi daşıyır.

ÇXR-də doğuma nəzarət siyasəti 1970-ci illərin əvvəllərində başlayıb. İlk mərhələdə böyük şəhərlərdə yaşayan ailələrdə ikinci uşağın doğulması qadağan edilib. 1980-ci ildən isə Çin əhalisinin 92 faizini təşkil edən Xan milləti üçün bəzi istisnalar olmaqla, "Bir ailə - bir uşaq" siyasəti tətbiq olunub. Mütəxəssislərin hesablamalarına görə, əgər "Bir ailə - bir uşaq" siyasəti tətbiq edilməsəydi, hazırda ölkə əhalisinin sayı 1,7-1,8 milyard nəfərə çata bilərdi.

**İsveçdə** çoxuşaqlı ailələrə proqressiv müavinətlər verilir və bu müavinətlər hər yeni doğulmuş uşağa görə artır.

**Finlandiyada** isə çoxuşaqlı ailələrə, təkvalideynli ailələrə hər hansı bir imtiyaz verilmir. Lakin müxtəlif sepkilərdə sosial müavinətlər verilir. Bunlardan biri "yeni doğulmuşlar üçün paket"dir. Bu paket bütün qadınlara şamil edilir və uşağın 1yaşına qədər hər bir ehtiyacları ödənilir. Paketin məbləği 1 neçə yüz avro ilə ölçülür. Uşaqlar böyüdükcə, onların digər ehtiyacları da nəzərə alınaraq müəyyən güzəştlər verilir.

**Polşada** isə hazırda xüsusi meyar qəbul olunub. Əgər çoxuşaqlı ailələrdə adambaşına düşən gəlir 125 dollardan azdırsa, onda həmin ailəyə imtiyazlar verilir. Əgər ailədə əlil uşaq varsa, valideynlərdən biri işləmirsə, həmin uşağa qulluq göstərməklə məşğul olurlarsa, onda həmin məbləğ 2 dəfə artırılır. Çexiyada hər doğulan uşağa görə qadının təqaüd yaşı azaldılır.

**Almaniyada** "Gəlir vergisi haqqında" və "Uşaq müavinətləri" haqqında qanunlar qəbul olunub. 2 yaşına qədər hər uşaq üçün anaya ayda 300 avro verilir. Bundan əlavə, əgər ailədə 3 və daha çox uşaq varsa, hər uşağa 179 avro verilir.

### Çoxlu uşağın olsun, sənə qoyun verək

**Rusiyada** 1992-ci ildə "Çoxuşaqlı ailələrə sosial yardımın edilməsi" haqqında Sərəncamda çoxuşaqlı ailələrə yardım 32 maddədə göstərilir. Onlardan biri çoxuşaqlı ailələrə 30 il müddətində, ilkin ödənişsiz ev krediti verilir. Rusiyada 1 uşağa görə 1500 rubl, 2 uşağa görə 3000 rubl, 3 uşağa görə 3500, 4 uşağa görə 4000 rubl verilir.

Rusiyanın Sibir regionunda yoxsul çoxuşaqlı ailələrə 1000-dək qoyun pulsuz paylanacaq. Plana əsasən, Kemerevo regional hökuməti yoxsul çoxuşaqlı ailələrə yardım proqramı çərçivəsində 500 belə ailədən hər birinə bir cüt qoyun hədiyyə edəcək. Regionun qubernatoru Aman Tuleyev bildirib ki, məqsəd çoxuşaqlı yoxsul ailələrin ərzaq təhlükəsizliyini təmin etməkdir.

Kemerovo vilayətində 3 və daha çox uşağı olan ailələr çoxuşaqlı sayılır. Xəbərdə o da qeyd olunur ki, qoyunlar ailələrə paylanmazdan əvvəl həmin ailələrin heyvan saxlamaq imkanları nəzərdən keçiriləcək, ilk növbədə, tövlənin olub-olmaması yoxlanacaq. Buna oxşar proqramlar keçmişdə Rusiyanın digər bölgələrində də həyata keçirilib.

2011-2014-cü illər arası yerli hökumətlər tərəfindən Buryatiya regionunda 550 yoxsul ailəyə, ötən il isə Şimali Osetiyada 30 çoxuşaqlı ailəyə inəklər hədiyyə edilmişdi.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 283 (6311) 19 dekabr 2015



# Günəbaxan tumunun inanılmaz faydaları

**Bir çoxlarının köklüyə səbəb olduğu üçün uzaq durduğu bu çərəz əslində sağlamlığın əsl keşikçisi imiş. Araşdırmalar günəbaxan tumunun antioksidantlar və minerallarla zəngin olduğunu sübuta yetirib. Günəbaxan tumu soğan, sarımsaq və brokli kələmi kimi ürək və xərçəng xəstəliklərindən qorunmağa kömək edir. Xroniki xəstəliklərin bir çoxuna qarşı təsirlidir.**

30 qram günəbaxan tumu gündəlik E vitamini ehtiyacını qarşılamağa qadirdir. Mütəxəssislər gün ərzində E vitamini ehtiyacını qarşılayan insanların ürək xəstəliklərinə yaxalanmaq riskinin yarıbayarı azaldığını bildirirlər. Günəbaxan tumunun tərkibindəki Selen mikroelementi isə hüceyrələri qoruyur. 30 qram günəbaxan tumunun tərkibindəki Selen kişilərin gündəlik selen ehtiyacının 24 faizini, qadınlarda isə 31 faizini ödəyir. Günəbaxan tumu həmçinin qanda xolesterinin səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Günəbaxan tumunun tərkibində mis, sink, dəmir və lif də var. Bunlar qırmızı qan hüceyrələrinin çoxalmasını təmin edərək bədənə oksigen daşınmasına, immunitet sisteminin qorunmasına, qan şəkərinin və qan xolesterin tarazlığının gözlənilməsinə və qəbizliyin önlənməsinə kömək edir.

# Nəvəsi üçün saqqal taxdı

**Amerikada yaşayan 66 yaşlı Gloria Lanice Bryan adlı qadın nəvəsini görə bilmək üçün saxtakarlığa əl atıb. Məlumatlara görə, yaşlı qadın bundan ötrü uşağın oxuduğu məktəbə saqqal taxaraq gedib.**



Bildirilir ki, qadın oğlu və gəlini ilə bir müddət əvvəl mübahisə edib. Həmin gündən nəvəsini görməyən qadın onun üçün çox darıxıb və oxuduğu məktəbə getməyə qərar verib. Lakin oğlu və gəlininin onu görməsini istəmədiyi üçün kişi paltarı geyib və saqqal taxıb. Nəvəsinin məktəbinə gələn nənə onunla görüşüb, aldığı oyuncaqları və şirniyyatla verib. Məktəbin təhlükəsizlik xidməti isə tanımadığı adamın uşağa yaxınlaşdığını gördüyü zaman polisə xəbər verib. Polislər tərəfindən nəzarətə götürülən yaşlı qadın nəvəsini görmək üçün bu yola əl atdığını deyib. Gəlinin şikayətindən sonra məhkəməyə çıxarılan yaşlı nənə artıq nəvəsini görə bilməyəcək.

# Aclıq xərçəngi müalicə edir

**"Proceedings of the National Academy of Sciences" jurnalında çox maraqlı araşdırmanın nəticələri dərc olunub. Alimlər sübut edir ki, vaxtaşırı olaraq ac qalmaq diabet, xərçəng, Alsheymer xəstəliyi, ürək-damar sistemi xəstəliklərini qarşı ən güclü profilaktik tədbiridir. Milli.Az saglamolun.az-a istinadən bildirir ki, heyvanlar üzərində aparılan eksperimentlər nəticəsində məlum olub ki, aclıq xərçəng, diabet, ürək-damar sistemi xəstəliklərinin inkişafını dayandırır.**

Alimlər həftədə 3-4 dəfə səhər və günorta qida qəbulundan imtina etməyi (faktiki oruc tutmağı- red.) və ya həftədə 2-3 dəfə 500 kilokaloridən artıq qəbul etməməyi tövsiyə edirlər. Alimlərin fikirincə, aclıq zamanı orqanizmdə gedən bərpa prosesləri sürətlənir, şiş ona lazım olan "qidadan" məhrum olur, zədələnmiş hüceyrələrin bərpası aktivləşir.





# Artıq çəki ömrü 8-9 il qısaldır

**Məşhur "Lancet Diabetes and Endocrinology" jurnalında maraqlı araşdırmanın nəticələri dərc olunub. Alimlər kompüterin köməyi ilə xüsusi riyazi model hazırlayıblar. Kompüterə piylənmədən əziyyət çəkən insanlar haqqında məlumatlar daxil edilib. Nəticədə məlum olub ki, piylənmə insan ömrünü 8-9 il qısaldır. Qarın nahiyəsində piylərin yığılması şəkərli diabet, ürək-damar sistemi və s. ağır xəstəliklərinin inkişafında əsas rollardan birini oynayır.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, dünyada 1,5 milyard insan piylənmədən əziyyət çəkir. Piylənmə xeyli "cavanlaşıb". Artıq bu diaqnoz 20 yaşlı insanlara və hətta uşaqlara qoyulur. Alimlərin fikirncə, bu çox təhlükəli tendensiyadır.

# Qoroskop




**QOÇ** - Yeni əlaqə və tanışlıq üçün ideal ərəfədir. Bu gün ailə-sevgi münasibətləri də qaydasına düşəcək. Amma xarakterinizdən gələn "bircə anda hər şeyi alt-üst etmək" metodundan uzaq olun.

**BUĞA** - Kifayət qədər məhsuldar gündür. Bu səbəbdən də bütün gücünüzü fəaliyyət istiqamətinə yönəltməlisiniz. Sağlıq durumunuzu nəzarətdə saxlayın. Günorta təzə xəbərlər eşidəcəksiniz.

**ƏKİZLƏR** - Böyük dəyişikliklər astanasındasınız. Amma yüz dəfələrlə ölçüb-biçməlisiniz ki, seçimdə yanılmayasınız. Çünki yaxın gələcəyiniz indiki addımlarınızdan birbaşa asılıdır.

**XƏRÇƏNG** - Anlaşılmaz bir gün yaşayacaqsınız. Sanki mistik məxluqlar ətrafınızda dolaşmaqdadır. Bəzən su içmək kimi asan olan bir işiniz daşdan keçir. Bəlkə günahı özünüzdə axtarasınız?!

**ŞİR** - Bütün astroloji göstəricilər bu gözəl gündə şəxsi büdcənizin artacağından xəbər verir. Deməli, digər işləri ikinci plana salıb əsas diqqətinizi pul amilinə yönəltməlisiniz.

**QIZ** - Müəyyən gərginliklə baş-başa qalacağınız mümkündür. Bir tərəfdən müsahiblərinizin sizi anlamaması, digər tərəfdənsə daxili orqanlarınızın nasazlığı əsəblərinizi tarıma çəkə bilər.

**TƏRƏZİ** - Həmkarlarınızla münasibətləri hədəqəsindən çıxarmasanız, ixtiyarınızda olan bu təqvimdən narazı qalmayacaqsınız. Saat 15-17 arası işgüzar görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Nigarançılığa heç bir əsas yoxdur. Əgər özünüz kimisə aldatmasanız, sizə qarşı belə bir hal baş verməyəcək. Ulduzlar nahardan sonra yeni təkliflər alacağınızdan xəbər verir.

**OXATAN** - Saat 13-ə qədər və 18-dən sonra ümumi vəziyyətiniz yaxşı olacaq. Qalan müddətdə isə sizi hiddətləndirə bilən hadisələr mümkündür. Bu səbəbdən də gün ərzində hər adamla ünsiyyət qurmayın.

**OĞLAQ** - Bəxtinizdə olduqca rəvan bir gün durur. Əlalxüsus da saat 13-dən başlayaraq rastlaşdığınız hadisələr ovqatınızı yüksəldəcək. Aldığınız təkliflərdən qətiyyən imtina etməyin.

**SUTÖKƏN** - Nədənsə hadisələri qabaqlamaq, iştirakçısı olduğunuz proseslərin nəticələrinə tez-tələsik nail olmaq istəyirsiniz. Amma unutmaq olmaz ki, səbr və təmkin insanın ən böyük xilaskarıdır.

**BALIQLAR** - Münasibətlər zəminində olduqca neqativ gündür. Odur ki, istənilən ciddi söhbətdən uzaqlaşın. Risk və sövdələşmələrə isə qətiyyən baş qoşmayın. Yalnız səfərlə bağlı uğurlarınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Müdirlər robot olacaq



**Beynəlxalq araşdırma şirkəti olan "Accenture Strategyn"in apardığı tədqiqatlar nəticəsində məlum olub ki, qarşıdakı 5-10 il ərzində bütün şirkətlərin müdirləri robotlar olacaq. Xüsusi hazırlanmış olan robotlar çox ağıllı olduqları üçün şirkətləri idarə edə biləcəklər. Araşdırma zamanı 17 fərqli sektordan 700 müdirin fəaliyyəti araşdırılıb. Nəticədə məlum olub ki, müdirlər zamanlarını çoxunu işə və idarə etməyə ayırdıqları üçün öz həyatları ilə maraqlana bilmirlər. İnsanların yorğunluğunu və özlərinə zaman ayıra bilməmə problemini aradan qaldırmaq üçün robotlar iş başına keçəcək.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300